# QARDAŞ ÖLKƏLƏRİN GENİŞLƏNƏN ƏMƏKDAŞLIĞI

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) ikitərəfli münasibətlərlə bağlı müsahibə verib.

Prezident İlham Əliyev qeyd edib ki, ölkələrimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir: "Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır. Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir".

İki ölkə arasında iqtisadi münasibətlərə də toxunan dövlət başçısı bildirib ki, qarşılıqlı ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib: "Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb".

SƏHİFƏ 2-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

22 AVQUST ŞƏNBƏ 2026 № 31 (4282) Qiyməti - 60 qəpik www.kaspi.az



## ŞƏRƏFLİ MİSSİYANIN MÜASİR DAVAMÇISI

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Birinci xanım Mehriban Əliyeva ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında bir çox uğurlara imza atıb. O, Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır.

SƏHİFƏ 3-də



## TURİZM SEKTORUNDA 2030-CU İL HƏDƏFİ

Prezident İlham Əliyev "Turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Hökumət 2030-cu ilə qədər turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərdə təxminən 40% real artım hədəfləyir.

SƏHİFƏ 10-da



## TƏKCƏ CV GÖNDƏRMƏK KİFAYƏT ETMİR

İş tapmaq üçün yalnız CV göndərmək kifayət etmir. Mütəxəssislər vakansiya platformaları ilə yanaşı, DMA-nın imkanlarından, şirkətlərin karyera səhifələrindən və peşəkar əlaqələrdən istifadə etməyi tövsiyə edirlər.

SƏHİFƏ 14-də

# İQTİSADİ GÖSTƏRİCİLƏRDƏ MÜSBƏT DİNAMİKA




Mövcud statistik rəqəmlər Azərbaycan iqtisadiyyatının dayanıqlılığını və mövcud çağırışlara münasibətdə inkişaf tempini qoruduğunu bir daha əyani şəkildə göstərir.

### ÖLKƏDƏ ÜDM İSTEHSALI 1,4 FAİZ ARTIB

Statistik rəqəmlər iqtisadi inkişaf tempinin sürətlənəcəyi ilə bağlı proqnozları gücləndirir. Belə ki, bu ilin yanvar-iyul aylarında Azərbaycanda 76 milyard 817,7 milyon manatlıq ÜDM istehsal olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən 1,4% çoxdur.

### 9,3 MİLYARD DOLLARLIQ MÜSBƏT SALDO

Hesabat dövründə Azərbaycan 119 ölkəyə məhsul ixrac edib, 155 ölkədən isə məhsul idxal olunub. Ölkənin xarici ticarət dövriyyəsi 9,1 faiz artaraq 26 milyard 54,2 milyon dollar təşkil edib. Bu dövrdə 9 milyard 372 milyon dollar məbləğində müsbət ticarət saldosu yaranıb.

SƏHİFƏ 8-9-da

"Brutto-müqavilə" modeli nəyi dəyişəcək?

## BİR KART, BÜTÜN NƏQLİYYAT



Aylıq nəqliyyat biletinin tətbiqi məsələsi uzun müddətdir müzakirə olunsa da, hələlik real sistemə çevrilməyib. Bakı metrosunda "28 May"-"Nizami" sahəsində qatarların hərəkətinin müvəqqəti dayandırılması bu məsələni yenidən aktuallaşdırıb. Belə vəziyyətdə isə bir sual ortaya çıxır: ictimai nəqliyyatdan mütəmadi istifadə edən sərnişin niyə daha sərfəli aylıq nəqliyyat bileti ala bilməsin?

SƏHİFƏ 6-da



## "BİZ ƏDALƏT, HƏQİQƏT VƏ LƏYAQƏT İSTƏYİRİK"

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda keçirilən beynəlxalq konfransda Belçika müstəmləkəçiliyinin yaratdığı siyasi, sosial və iqtisadi nəticələr müzakirə edilib. Tədbirə BMT nümayəndələri də qatılıblar.

SƏHİFƏ 4-də



## TƏHLÜKƏSİZLİK XƏRİTƏSİNİ DƏYİŞƏN RAZILAŞMA

Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın üçlükdə imzaladıqları Məkkə sazişi Yaxın Şərqdə yeni hərbi-siyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Lakin sazişlə bağlı açıq qalan suallar da var.

SƏHİFƏ 5-də



## GƏLƏCƏYİN ŞƏHƏRİNƏ SƏYAHƏT

Çinin ən böyük şəhərlərindən biri olan Şanxayın iki üzü var: bir tərəfdə futuristik rudonq göydələnləri, digər tərəfdə isə sahil boyunca Avropa memarlığı... Bir neçə dəqiqəlik gəzinti ilə sanki iki fərqli əsrə keçirsiniz.

SƏHİFƏ 15-də



Ərzaq səbətində idxal problemi

SƏHİFƏ 7-də



Xarici dil müəllimliyinə qəbul niyə azalır?

SƏHİFƏ 11-də



SOCAR WIN müraciətlərin qəbuluna başlayıb

SƏHİFƏ 10-da



Bakının günəşi avtomobilləri necə "qocaldır"?

SƏHİFƏ 12-də



"Qarabağ"ın iz qoyub gedən sehrbazı

SƏHİFƏ 16-da

# QARDAŞ ÖLKƏLƏRİN GENİŞLƏNƏN ƏMƏKDAŞLIĞI

Prezident İlham Əliyev: “İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır”.



Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib. Dövlət başçısı Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin mövcud durumu, gələcək inkişaf perspektivləri və atılan birgə addımlarla bağlı fikirlərini açıqlayıb.

### “ÖLKƏLƏRİMİZ ARASINDA SİYASİ DİALOQ ÇOX YÜKSƏK SƏVİYYƏDƏDİR”

Prezident qeyd edib ki, iki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır. Bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarası münasibətlər son illər misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb.

Dövlət başçısı vurğulayıb ki, ölkələrimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir: “Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır. Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir. Gözəl və bənzərsiz Özbəkistana səfər etməkdən daim böyük məmnunluq duyuram və hər səfər mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ənənəvi olaraq bu səfərlər müstəsna qonaqpərvərlik, qardaşlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində baş tutur”.

Prezident bildirib ki, bu gün siyasi münasibətlərimiz iqtisadiyyat, investisiya, sənaye, nəqliyyat, logistika, enerji, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət və humanitar sahələrdə genişmiqyaslı əməkdaşlıq tədbirləri ilə daha da zənginləşir. Həyata keçirilən layihələr ölkələrimizin iqtisadi potensialını birləşdirməklə yanaşı, xalqlarımız arasında dostluq və qardaşlıq bağlarını daha da möhkəmləndirir: “Əminəm ki, qarşıdakı səfər də ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da genişləndirilməsi, yeni birgə təşəbbüslərin həyata keçirilməsi və müttəfiqlik münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olacaq”.

## Ticarət dövriyyəsi üç dəfədən çox artıb

İki ölkə arasında iqtisadi münasibətlərə də toxunan dövlət başçısı söyləyib ki, Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib: “Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. Üç il əvvəl 500 milyon ABŞ dolları məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir”.

Prezident qeyd edib ki, energetika sektorunda əməkdaşlığımız fəal şəkildə inkişaf edir. Özbəkistanın OZLITINEFTGAZ institutu və “SOCAR NIPI Neftegaz”ın bazasında yaradılan “Neftegaztexnologiya” birgə müəssisəsi 2016-cı ildən bəri neft-qaz sahəsində uğurla fəaliyyət göstərir. Bundan əlavə, 2024-cü ildə yaradılan SOCAR və “Özbəkneftegaz” SC arasında birgə müəssisə olan “Turan Energy AFEZCO” “Azərikimya” İstehsalat Birliyi tərəfindən istehsal olunan yüksəktəzyiqli polietilenin Özbəkistana ixracını həyata keçirir: “Hazırda ölkəmizdə Özbəkistan investisiyalı 130-dan çox kommersiya təşkilatı qeydiyyatdan keçib və onlar müxtəlif iqtisadi sektorlarda - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər”.

### TDT ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ

Prezident İlham Əliyev iki ölkənin Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlığını da dəyərləndirib. Onun sözlərinə görə, iki qardaş ölkənin - Azərbaycanın və Özbəkistanın bütün məsələlərdə bir-birini daim dəstəkləməsi faktı qürur hissi doğurur: “Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir”.



Dövlət başçısı bildirib ki, Azərbaycan və Özbəkistan TDT-ni təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir: “Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir. Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta Dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq”.

## Çox vacib nüfuzlu platformalardan biri

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə gəldikdə isə Prezident qeyd edib ki, son illərdə bu əlaqələr müttəfiqlik, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edib. Tarixi və mədəni yaxınlıq, ortaq mənəvi dəyərlər kimi mühüm amillər Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında mövcud əlaqələrin möhkəm təməlini təşkil edir: “Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu baxımdan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri regional əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi və birgə təşəbbüslərin müzakirəsi üçün çox vacib nüfuzlu platformalardan biridir”.

# ŞƏRƏFLİ MİSSİYANIN MÜASİR DAVAMÇISI

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Birinci xanım Mehriban Əliyeva ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında bir çox uğurlara imza atıb. O, Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır.



ƏRTURAN İSMAYIL

Bəşər sivilizasiyasına böyük töhfələr vermiş Azərbaycan xalqı milli mentalitetində qadına, qadınlığa yüksək münasibətilə fərqlənib. Zəngin tarixi irsimizdə qadınlar müdriklik və qəhrəmanlıq mücəssəməsi kimi hörmətlə xatırlanıblar. Tarix boyu qadınlarımızın funksiyası sadəcə sədaqətli ömür-gün yoldaşı, fədakar ailə başçısı, qayğıkeş ana, gələcək nəsillərin tərbiyəçisi olmaqla yekunlaşmayıb. Zərif cinsin nümayəndələri tarixin müxtəlif dövrlərində kişilərlə çiyin-çiyinə öz xalqına və dövlətinə xidmət edib, həyatın bir çox sahələrində təmsil olunub, uğurlu fəaliyyətləri ilə diqqət çəkiblər. Hökmdar və sərkərdə Tomris, diplomat Sara Xatun, şairə Məhsəti Gəncəvi, xeyriyyəçi Xurşidbanu Natəvan, Şərqin ilk qadın təyyarəçisi Leyla Məmmədbəyova, akademik Zərifə Əliyeva və başqaları cəsarəti, müdrikliyi, istedadı ilə seçilən görkəmli qadın şəxsiyyətlərdir. Onlar Azərbaycanda qadın hərəkatının formalaşması və inkişafı, nəticə etibarilə təmsil olunduqları cəmiyyətin, dövlətin tərəqqisi yolunda xüsusi missiya həyata keçiriblər.

### PREZİDENT İLHAM ƏLİYEVİN ƏN YAXIN SİLAHDAŞI

Müasir dövrümüzdə bu missiya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Hərtərəfli fəaliyyəti ilə müstəqil dövlətimizin yorulmaz cəfakeşinə çevrilən Mehriban Əliyeva ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında bir çox uğurlara imza atıb. O, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi işğaldan azad olunan torpaqlara çoxsaylı səfərlər edib, Qarabağ və ətraf rayonların yaşayış məntəqələrinin bərpasında, keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına qovuşmasında mühüm rol oynayıb.

## Dağıdılan tarixi-memarlıq abidələrimizin bərpası

Qarabağ və Şərqi Zəngəzura səfərlər çərçivəsində vandalizmə məruz qalan tarixi-memarlıq abidələrimizin bərpasına da böyük önəm verilib. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən təkcə Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Bülbülün və Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyləri, Mehmandarovların malikanə kompleksi, Şuşa Yaradıcılıq Mərkəzi, Şirin su hamamı, Milli Xalça Muzeyinin Şuşa filialı, həmçinin Pənahəli xan küçəsindəki bir sıra binalar yüksək səviyyədə bərpa olunub.

### DİNİ DƏYƏRLƏRƏ HÖRMƏT

Mehriban Əliyeva dini-ibadətgah evlərinin bərpasını da diqqət mərkəzində saxlayıb. Heydər Əliyev Fondu tərəfindən Şuşada Saatlı, Mamayı, Çöl Qala, Aşağı və Yuxarı Gövhər Ağa məscidləri, Ağdamda Cümə məscidi tarixi simasını qorumaqla bərpa olunub, Zəngilanda yeni məscid kompleksi inşa edilib. Qeyd etmək yerinə düşər ki, bu işlər sadəcə Qarabağ və Şərqi Zəngəzuru əhatə etmir. Təkcə son altı ildə paytaxt Bakıda, Gəncə şəhərində, eləcə də İsmayıllı, Şamaxı, Quba və sair rayonlarda uşaq incəsənət məktəbləri və tam orta məktəblər, xarici dillər təmayüllü gimnaziya, uşaq bağçaları üçün yeni binalar tikilib, müasir yaradıcılıq mərkəzləri, tədris və xidmət kompleksi, səhiyyə obyektləri istifadəyə verilib.

Bundan başqa, Lahıcdakı Bədöyün məscidində, Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksində, Əhmədli qəsəbəsindəki 120 yaşlı məsciddə əsaslı təmir-bərpa işləri görülüb. Birinci vitse-prezidentin tarixi-memarlıq abidələrimizin təmir-bərpasına xüsusi diqqətlə yanaşmasına son nümunə kimi, Naxçıvan Muxtar Respublikasına dövlət başçısı ilə birlikdə səfəri çərçivəsində "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak etməsini, Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanış olmasını göstərmək olar. Bu, bir daha sübut edir ki, Mehriban xanım Əliyeva ölkəmizin hər bir regionuna, oranın tarixinə, insanlarına, maddi-mədəni irsinə həssaslıqla yanaşır. Bölgələrə səfərləri çərçivəsində keçmiş məcburi köçkünlərlə, şəhid ailəsi üzvləri və qazilərlə şəxsən görüşür, onların evində qonaq olur və fikirlərini dinləyir, ölkə vətəndaşlarının sosial problemlərinin həllinə, rifah halının daha da yaxşılaşmasına dəstək olur.

## Rəqəmsal İnkişaf Şurasındakı sədrlik fəaliyyəti

Onu da qeyd etmək yerinə düşər ki, rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi müasir dövrümüzün tələbidir. Məhz bu tələbdən irəli gələrək, Prezident İlham Əliyevin cari ilin fevral ayında imzaladığı sərəncamlarla Rəqəmsal İnkişaf Şurası yaradılıb, Mehriban xanım Əliyeva Şuranın sədri təyin olunub, rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı təsdiqlənib. İyunun 29-da Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda çıxış edən Birinci vitse-prezident vurğulayıb ki, Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini



əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir.

Demokratik, hüquqi, sivil, dünyəvi dövlət quruculuğunda fəal iştirak edən, Azərbaycan dövlətçiliyinin güclənməsinə töhfə verən, bir çox uğurlu yerli və beynəlxalq layihələrə imza atan Mehriban xanım Əliyevanın sədrlik etdiyi Şura qarşıya qoyulan bu vəzifələrin də öhdəsindən gələcəkdir.

# “BİZ ƏDALƏT, HƏQİQƏT VƏ LƏYAQƏT İSTƏYİRİK”

BTQ-nin təşkilatçılığı ilə Bakıda keçirilən beynəlxalq konfransda Belçika müstəmləkəçiliyinin yaratdığı siyasi, sosial və iqtisadi nəticələr müzakirə edilib. Tədbirə, BMT nümayəndələri də qatılıblar.




## “100 ildən sonra qarşımızda mühüm bir sual dayanır”

F. ABASOĞLU

Avqustun 21-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda “Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili” mövzusunda beynəlxalq konfrans keçirilib.

Beynəlxalq konfransda Belçikanın keçmiş müstəmləkələri olan, eləcə də bu ölkələrdə neokolonial təsirlərin davam etdiyi Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundi, həmçinin Mərakeş və Cənubi Afrika Respublikasından nümayəndələr iştirak ediblər. Tədbirə, həmçinin Birləşmiş Millətlər Təşkilatının (BMT) nümayəndələri qatılıblar.

Konfransda iştirak edən rəsmi şəxslər arasında Konqo Demokratik Respublikasının ombudsmanı, Konqo Parlamentinin deputatları, Ruandanın Türkiyədəki səfiri və diplomatları yer alıb.

Konfrans çərçivəsində Belçika müstəmləkəçiliyinin tarixi, onun keçmiş müstəmləkələrdə yaratdığı siyasi, sosial və iqtisadi nəticələr, müstəmləkəçilik siyasətinin doğurduğu ədalətsizliklər, tarixi həqiqətlərin araşdırılması və zərərçəkmiş xalqların təzminat tələbləri ilə bağlı məsələlərin müzakirəsi aparılıb.


Fransis Tşibalabala

Konqo Demokratik Respublikası Milli Assambleyasının deputatı, “İlk öncə xalq” (“Le peuple d'abord”) partiyasının üzvü Fransis Tşibalabala bildirib ki, Belçikanın Konqo Demokratik Respublikası, Ruanda və Burundi ərazilərində həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tarixinə səmimiyyət, cəsarət və məsuliyyətlə yanaşmaq, bu irsin müasir dövrdə yaratdığı nəticələri obyektiv qiymətləndirmək vacibdir.

O qeyd edib ki, 1925-ci il martın 21-i Konqo, Ruanda və Burundidə müstəmləkəçilik tarixinin mühüm mərhələlərindən birini təşkil edir. “Həmin tarix Ruanda, Burundi və Konqoda baş vermiş kütləvi köçürülmə hadisələri ilə bağlıdır.

100 ildən artıq vaxt keçdikdən sonra qarşımızda mühüm bir sual dayanır: bu gün həmin irslə nə edirik? Müstəmləkəçilik tarixi sadəcə tarixlərin ardıcıllığı deyil. Bu tarix cəmiyyətimizdə nəsildən-nəslə ötürülən yaralar, bərabərsizliklər və ağır xatirələr qoyub”, - deyə KDR Milli Assambleyasının deputatı bildirib. O vurğulayıb ki, müstəmləkəçilik dövrü təbii sərvətlərin istismarı, məcburi əmək, ayrı-seçkilik, təzyiq, mədəni kimliyin zəiflədilməsi, eləcə də bir sıra institusional və identiklik dəyərlərinin inkar edilməsi ilə müşayiət olunub.

“KDR xalqının tarixi yalnız müstəmləkəçilik dövrünün yaratdığı ağrı və ədalətsizliklərləməhdudlaşmır. Bu, eyni zamanda müqavimət, dözümlülük və milli ləyaqət tarixidir. Bütün çətinliklərə baxmayaraq, Konqo xalqı 1960-cı il iyunun 30-da öz müstəqilliyini əldə etdi. Bu, xalqımızın iradəsini və ləyaqətini nümayiş etdirən mühüm tarixi hadisədir”, - deyə deputat diqqətə çatdırıb.

Fransis Tşibalabala Mukunayi bildirib ki, tarixi ədalətin bərpası keçmişi dəyişdirmək və ya tarixi yenidən yazmaq məqsədi daşımır: “Biz keçmişin silinməsini tələb etmirik, tarixin tanınmasını istəyirik. Biz qisas tələb etmirik, ədalət, həqiqət və ləyaqət istəyirik”.

### “MÜSTƏMLƏKƏÇİLİK SADƏCƏ ƏRAZİLƏRİ İŞĞAL ETMƏDİ”

Ruanda Respublikasının Türkiyə, Azərbaycan, Qazaxıstan və Livandakı səfiri Çarlz Kayonqa deyib ki, müstəmləkəçilik yalnız ərazilərin işğalı ilə məhdudlaşmayıb, eyni zamanda siyasi hakimiyyətə, sosial kimliklərə, iqtisadi münasibətlərə və cəmiyyətdə ayrı-seçkilik mexanizmlərinə təsir edən institutlar formalaşdırıb. Bu strukturlar formal müstəmləkəçilik başa çatdıqdan onilliklər sonra belə bir sıra keçmiş müstəmləkələrdə öz təsirini saxlayır.

Səfir bildirib ki, tarixi hadisələrin müasir siyasətə və gələcək fəaliyyət istiqamətlərinə təsiri nəzərə alınmalıdır. “Düzəldici ədalət tarixi zərərin aradan qaldırılmasına, eyni zamanda, dövlətlər və cəmiyyətlər arasında daha güclü və həmrəy münasibətlərin formalaşdırılmasına xidmət edir”, - deyə Ç.Kayonqa qeyd edib. O vurğulayıb ki, müstəmləkəçiliklə bağlı siyasi təcrübənin öyrənilməsi uzunmüddətli nəticələri anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. “Müstəmləkəçilik sadəcə əraziləri işğal etmədi. O, siyasi hakimiyyətin formalaşmasına, sosial kimliklərə, iqtisadi təşkilatlanmaya, eləcə də cəmiyyət daxilində kimlərin proseslərə cəlb edilməsi və kimlərin kənarda saxlanılmasına təsir edən institutlar yaratdı. İnstitusional strukturlar bir sıra keçmiş müstəmləkələrdə bu gün də müəyyən mənada davam edir və onların təsirlərinin aradan qaldırılması üçün tarixi proseslərə daha dərindən nəzər salmaq zəruridir”, - deyə səfir əlavə edib.

### “BELÇİKA DÖVLƏT SƏVİYYƏSİNDƏ ÜZR İSTƏMƏLİDİR”

BTQ-nin icraçı direktoru Abbas Abbasov jurnalistlərə açıqlamasında deyib ki, təxminən 1960-cı illərdən bəri Mərkəzi Afrika ölkələri Belçikadan reparasiyalarla bağlı müəyyən konkret addımlar gözləyir. O qeyd edib ki, bu məsələdə beynəlxalq hüquq çərçivəsində konkret addımlar atılmalıdır: “Ən mühüm addımlardan biri Belçika dövlətinin Mərkəzi Afrika ölkələrindən, o cümlədən Konqo Demokratik Respublikasından, Ruandadan və Burundidən dövlət səviyyəsində üzr istəməsi olmalıdır. Daha sonra təzminatların məbləği müəyyənləşdirilməli, maliyyə təzminatları mərhələli şəkildə bu ölkələrə ödənilməlidir. Sonda isə ən mühüm addımlardan biri bu ölkələrin daxili siyasi məsələlərinə Belçika tərəfindən hər hansı müdaxilənin olmamasının təmin edilməsi və kolonial cinayətlərin təkrarlanmaması üçün hüquqi mexanizmin yaradılması olmalıdır”.

A.Abbasov vurğulayıb ki, bu məsələdə dövlət strukturları ilə bərabər vətəndaş cəmiyyətləri də səylər göstərməlidir: “Yalnız beynəlxalq platformalarda dövlət nümayəndələri iştirak edərək bu məsələni qabartmamalıdır. Daha çox vətəndaş cəmiyyəti institutları və BMT strukturları da müxtəlif beynəlxalq platformalarda bu məsələni gündəmə gətirməli və müzakirəyə çıxarmalıdır”.


Çarlz Kayonqa

# TƏHLÜKƏSİZLİK XƏRİTƏSİNİ DƏYİŞƏN RAZILAŞMA

Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın imzaladığı Məkkə sazişi Yaxın Şərqdə yeni hərbi-siyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Lakin sazişlə bağlı açıq qalan suallar da var.



AZƏR NURİYEV



Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın Məkkə müdafiə sazişini imzalamasından on gündən çox vaxt keçib. Bəziləri sazişi İran və İsrail kimi ölkələrə göndərilən siqnal kimi qiymətləndirir. Digərləri isə hesab edirlər ki, saziş onu imzalayan ölkələrin təhlükəsizlik məsələlərində ABŞ-dan asılılığını azaltmaq istəyini əks etdirir. Sazişin tam mətni hələ açıqlanmadığından, spekulyasiyalar da kifayət qədərdir. Razılaşmaya əsasən, bu üç ölkədən birinə hücum hər üçünə hücum kimi qəbul ediləcək. Bu sazişi NATO üslubunda öhdəlik deyil, daha çox "niyyət bəyannaməsi" kimi qiymətləndirənlər də var. Yeri gəlmişkən, saziş üçün Məkkənin seçilməsi də təsadüfi deyil. Çünki Məkkə siyasi simvoldur. Eyni zamanda saziş təkcə hərbi-strateji deyil, həm də sivilizasiya mənası qazanır: üç nüfuzlu müsəlman dövləti nümayiş etdirir ki, islam dünyasının təhlükəsizliyi artıq yalnız xarici zəmanətlər ətrafında qurulmamalıdır.

Kadir Has Universitetinin beynəlxalq münasibətlər kafedrasından professor Serhat Güvenç qeyd edir ki, maliyyələşmə və silahlanma baxımından çoxdan ABŞ-nin dominantlıq etdiyi NATO-dan fərqli olaraq, bu, "bərabərlərin alyansı"dır.

Atlantik Şurasından Elison Maynor da bununla razılaşır. O bildirir ki, üç ölkənin dəyişən və bəzən ayrılan maraqlarını nəzərə alsaq, yeni alyansın NATO-nun etdiyi kimi müxtəlif böhranlara əhatəli və tam inteqrasiya olunmuş hərbi cavab verə bilməsi ehtimalı bir az azdır.

### RAZILAŞMA İRANA QARŞI YÖNƏLİB?

Sazişi imzalayan ölkələr arasında İranla həmsərhəd olan, sünni əhalinin çoxluq təşkil etdiyi iki ölkə - Türkiyə və Pakistanın, həmçinin Tehranın regional rəqibi Səudiyyə Ərəbistanının olması, bəziləri tərəfindən, xüsusən Tehranda, İranı mühasirəyə alma cəhdi kimi yozulub. Lakin Türkiyənin rəsmi şəxsləri qeyd edirlər ki, sazişə gətirib çıxaran proses indiki münaqişə və regiondakı gərginliyin artmasından əvvəl - 2024-cü ilin dekabrında başlamışdı. Pakistanın xarici işlər naziri və baş nazirin müavini İshaq Dar da vurğulayıb ki, razılaşma heç bir ölkəyə qarşı yönəlməyib. Bu arada İran XİN-in rəsmi nümayəndəsi İsmail Bəqai bildirib ki, "bu sazişin İrana qarşı yönəldiyindən narahat olmaq üçün heç bir səbəb yoxdur". Onun sözlərinə görə, bu, əksinə, üç ölkənin "ABŞ-nin təhlükəsizlik sahəsindəki öhdəliklərinə etibar edə bilməyəcəkləri qənaətinə gəldiyinin" əlamətidir.

## Məkkə sazişinin ən çox qazananı kim olacaq?

Müşahidəçilər düşünürlər ki, hər üç ölkə bu razılaşmadan fayda əldə edəcək, eyni zamanda öz güclü tərəflərini ümumi iş üçün kökləyəcək. Səudiyyə Ərəbistanı böyük iqtisadiyyata, maliyyə resurslarına, diplomatik nüfuza malikdir, lakin krallıq hazırda üzləşdiyi artan təhdidlərdən - İran raketləri və dronları, husi hücumları və əsas dəniz marşrutlarındakı fasilələrdən narahatdır. İstanbul Siyasi Araşdırmalar İnstitutundan Rikkardo Qasko qeyd edir ki, yaxın perspektivdə Səudiyyə Ərəbistanı bu sazişdən ən böyük faydanı əldə edə bilər. O hesab edir ki, Türkiyənin texnologiyaları ilə Pakistanın ənənəvi hərbi potensialı, həmçinin strateji təcrübəsinin birləşməsi effektiv çəkindirici vasitədir. Türkiyə NATO üzvüdür, dünyanın ən böyük ordulardan birinə malikdir və həm coğrafi, həm də diplomatik baxımdan alyans ilə Yaxın Şərq ölkələri arasında körpü rolunu oynamağa çalışır. Pakistan da hərbi baxımdan tamamilə müstəqil dövlətdir və saziş iştirakçıları arasında nüvə silahına malik olan yeganə ölkədir. Məkkə sazişi artıq mövcud olan münasibətlərə və razılaşmalara əsaslanır.

Kral Feysal adına Araşdırmalar və İslamşünaslıq Mərkəzindən Ömər Kərim iddia edir ki, saziş onu imzalayan ölkələrin Yaxın Şərqdəki mövqelərini möhkəmləndirə bilər.



Elison Maynor

Serhat Güvenç

### ALYANS GƏLƏCƏKDƏ NECƏ GÖRÜNƏCƏK?

Bu sualın cavabı hələ məlum deyil. Prezident Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, "bizim baxışımız bu üç ölkə ilə məhdudlaşmır, əksinə daha da genişlənməni və mümkün olduqda, regionun bütün ölkələrinin bu çətir altında birləşməsinin təmin edilməsini nəzərdə tutur". Misir artıq Səudiyyə Ərəbistanı, Pakistan və Türkiyəni əhatə edən qeyri-rəsmi dörd ölkə qrupuna daxildir, ona görə də onun bu sazişə üzv qismində qoşulması gözlənilir. Sazişin imzalanmasından sonra Türkiyənin xarici işlər naziri Hakan Fidan Misirin "təbii tərəfdaş" olduğunu bəyan edib. Misirin xarici işlər naziri Bədr Əbdülətti Qahirənin Məkkə sazişini "çox ciddi şəkildə" araşdırdığını bildirib. Lakin Böyük Britaniyanın "Chatham House" araşdırma mərkəzindən Əhməd Abuduha görə, prezident Əbdülfəttah əs-Sisi dövründə Misir bloklara qoşulma məsələsində ehtiyatlı davranır, çünki bunun onun digər dövlətlərlə münasibətlərinə mənfi təsir riski var.

### ABŞ BAŞ VERƏNLƏRƏ QARŞI ÇIXMIR

Maraqlı məqam odur ki, ABŞ bu prosesə sakit yanaşır. Son günlər Prezident Donald Trampın sazişi regional təhlükəsizlik baxımından müsbət qiymətləndirdiyi barədə məlumatlar yayılıb. Bu, Vaşinqton üçün müəyyən mənada yeni imkan yaradır. ABŞ uzun müddətdir müttəfiqlərinin müdafiə xərclərini və regional təhlükəsizlik məsuliyyətini artırmasını istəyir. Əgər Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan daha çox təhlükəsizlik yükünü öz üzərinə götürürsə, bu, ABŞ-nin regiondakı hərbi yükünü müəyyən qədər azalda bilər. Ancaq burada başqa risk də var. Səudiyyə Ərəbistanının təhlükəsizlik məsələlərində Vaşinqtondan əlavə Ankara və İslamabada daha çox arxalanması regional güc balansını dəyişə bilər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# BİR KART, BÜTÜN NƏQLİYYAT

## "Bu problem tədricən aradan qaldırılır"

**Azərbaycanda aylıq nəqliyyat biletinin tətbiqi məsələsi uzun müddətdir müzakirə olunsa da, hələlik real sistemə çevrilməyib. İndi isə Bakı metrosunda "28 May"-"Nizami" sahəsində qatarların hərəkətinin avqustun 15-dən müvəqqəti dayandırılması bu məsələni yenidən aktuallaşdırıb.**

SEVİNC ABBASOVA

İctimai nəqliyyatdan hər gün istifadə edən sərnişin üçün əsas sual ayın sonunda ortaya çıxır: nəqliyyata bu ay nə qədər pul xərcləndi? İctimai nəqliyyatdan mütəmadi istifadə edən sərnişin üçün daha sərfəli tarif mexanizminin tətbiqi bu yükü azaltmaqla yanaşı, insanların ictimai nəqliyyata üstünlük verməsinə də stimul yarada bilər.

Azərbaycanda aylıq nəqliyyat biletinin tətbiqi məsələsi uzun müddətdir müzakirə olunsa da, hələlik real sistemə çevrilməyib. Bakı metrosunda "28 May"-"Nizami" sahəsində qatarların hərəkətinin müvəqqəti dayandırılması bu məsələni yenidən aktuallaşdırıb. Bu müddətdə sərnişinlərin bir hissəsi alternativ avtobus marşrutlarından istifadə etməli olacaq. Belə vəziyyətdə isə bir sual ortaya çıxır: ictimai nəqliyyatdan mütəmadi istifadə edən sərnişin niyə daha sərfəli aylıq nəqliyyat bileti ala bilməsin?

### PROBLEM YALNIZ TEXNİKİ İMKANLARLA BAĞLI DEYİL

Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyev hesab edir ki, artıq Azərbaycanda da belə paketlərin tətbiqi zərurətə çevrilib: "Dünyanın bir çox şəhərində bu sistem illərdir işləyir. Bizdə isə sərnişin ay ərzində metro və avtobusdan 10 dəfə də istifadə etsə, 100 dəfə də istifadə etsə, hər gediş üçün ayrıca tarif ödəyir", - deyə ekspert bildirib.

A.Nəbiyev deyib ki, aylıq paketlərin indiyədək tam şəkildə tətbiq olunmamasını yalnız texniki səbəblərlə izah etmək doğru deyil: "Burada tarif siyasəti, müxtəlif daşıyıcıların gəlirlərinin hesablanması, ödəniş sistemlərinin tam inteqrasiyası, sərnişin axınının dəqiq uçotu və ən əsası, güzəşt nəticəsində yaranacaq maliyyə fərqinin kim tərəfindən qarşılanacağı kimi məsələlər birlikdə həll edilməlidir".

Ekspertin sözlərinə görə, məsələ xüsusilə sərnişinin eyni nəqliyyat biletindən həm metroda, həm də müxtəlif avtobus marşrutlarında istifadə etdiyi halda mürəkkəbləşir. Belə olduqda sərnişinin ödədiyi vəsaitin müxtəlif daşıyıcılar arasında hansı prinsiplə bölüşdürüləcəyi əvvəlcədən müəyyənləşdirilməlidir: "Məsələn, sərnişin aylıq vahid paket alaraq həm metrodan, həm müxtəlif avtobus operatorlarından limitsiz və ya müəyyən sayda istifadə edəcəksə, həmin şəxsin ödədiyi vəsaitin metro ilə avtobus daşıyıcıları arasında hansı qaydada bölüşdürülməsi üçün dəqiq hesablama mexanizmi olmalıdır".



Adil Nəbiyev

Rauf Ağamirzəyev

Foto: Sabir Məhəmmədov/Global Photostock

Bununla belə, A.Nəbiyev hesab edir ki, elektron ödəniş imkanlarının genişlənməsi və müxtəlif nəqliyyat növlərinin vahid rəqəmsal mühitdə birləşdirilməsi istiqamətində görülən işlər vahid bilet sisteminin yaradılması üçün mühüm baza formalaşdırır.

"BakıKart"ın metro və avtobuslarda elektron ödəniş vasitəsi kimi istifadəsi, AYNA tərəfindən "AYNA MaaS" platformasının yaradılması və avtobus marşrutlarının nağdsız ödəniş sisteminə mərhələli keçirilməsi bu istiqamətdə imkanları artırır. "Əvvəllər əsas maneələrdən biri texniki infrastruktur və bütün nəqliyyat vasitələrinin vahid sistemdə görünməməsi idisə, bu problem tədricən aradan qaldırılır", - A. Nəbiyev qeyd edib.

> "Brutto-müqavilə" sisteminin tətbiqi bu prosesi sürətləndirəcək

### "30 GÜNLÜK PAKETLƏ KİFAYƏTLƏNMƏK OLMAZ"

Ekspertin fikrincə, gələcək abonement sistemi yalnız 30 günlük bir paketlə məhdudlaşmamalıdır. "Hamıya eyni aylıq kart təqdim etməkdənsə, 24 saatlıq, 7, 30, 90 günlük və illik, eləcə də müəyyən sayda gediş verən paketlər hazırlamaq olar. Metro və avtobus üçün ayrıca paketlə yanaşı, daha sərfəli vahid "metro+avtobus" paketi də təklif edilə bilər", - deyə o bildirib.

A.Nəbiyev hesab edir ki, belə bir sistemdə sosial qruplar üçün ayrıca tariflərin müəyyənləşdirilməsi də mümkündür.

"Sərnişin əvvəlcədən aylıq paket alanda artıq hər səfərdə "gediş haqqı nə qədərdir?" deyə düşünmür və avtomobilini evdə qoyaraq avtobus və metrodan istifadə etməyə daha çox maraq göstərir. Bu isə uzunmüddətli perspektivdə şəxsi avtomobillərdən istifadənin və şəhər mərkəzinə daxil olan avtomobillərin sayının azalmasına, tıxacların müəyyən qədər yüngülləşməsinə və ictimai nəqliyyatın payının artmasına xidmət edə bilər", - deyə A. Nəbiyev vurğulayıb.

### "BRUTTO-MÜQAVİLƏ" MODELİ NƏYİ DƏYİŞƏCƏK?

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev isə bildirib ki, ictimai nəqliyyatda vahid bilet və fərqli ödəniş modellərinə keçid baxımından "brutto-müqavilə" sistemi mühüm mərhələdir. Onun sözlərinə görə, bu modelə keçid 2026-2028-ci illər ərzində nəzərdə tutulub və proses Bakı şəhərində avtobusların nağdsız ödəniş sisteminə tam keçidi ilə əlaqələndirilir. "Hazırda avtobus parkının 88 faizi nağdsız, 12 faizi isə nağd ödənişlə fəaliyyət göstərir. Bu keçid tam başa çatdıqdan sonra "brutto-müqavilə" modeli tam gücü ilə işə düşəcək. İlkin olaraq ötən ay müvafiq qaydalar təsdiq edilib", - Rauf Ağamirzəyev bildirib.





### "ƏVVƏLCƏ NAĞDSIZ ÖDƏNİŞ TAM TƏMİN EDİLMƏLİDİR"

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) sorğumuza cavab olaraq bildirildi ki, ictimai nəqliyyatda müxtəlif ödəniş üsullarının, o cümlədən saatlıq, günlük və aylıq ödənişlərin, eləcə də güzəştlərin tətbiqi məsələsinə nağdsız ödənişlərə keçid tam təmin edildikdən sonra baxıla bilər.

Qurumun cavabında diqqət çəkən əsas məqam isə daşıyıcılarla bağlanacaq "brutto-müqavilə" sistemidir. AYNA-dan bildirilib ki, daşıyıcılarla bağlanacaq "brutto-müqavilə" sisteminin tətbiqi bu prosesin sürətlənməsinə imkan yaradacaq.

# ƏRZAQ SƏBƏTİNDƏ İDXAL PROBLEMİ

**Azərbaycanda ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün strateji məhsullar üzrə yerli istehsalın artırılması gündəmdədir. Ekspertlər hesab edirlər ki, əsas problem təkcə istehsal həcminin azlığı deyil, həm də mövcud potensialdan səmərəli istifadə edilməməsidir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda ərzaq təhlükəsizliyinin gücləndirilməsi və idxalı əvəzetmə siyasətinin dəstəklənməsi üçün buğda, ət, süd, balıq və bitki yağları kimi strateji məhsullar üzrə yerli istehsalın artırılması gündəmə gətirilib. Maliyyə Nazirliyi hesab edir ki, bu sahələrdə istehsal potensialı və məhsuldarlıq yüksəldilməli, intensiv istehsal üsulları genişləndirilməli və dövlət dəstəyi mexanizmləri daha nəticəyönümlü şəkildə qurulmalıdır. Nazirlik eyni zamanda aqrar sahədə subsidiyaların və güzəştlərin səmərəliliyinin təhlil edilməsini, iqtisadi baxımdan səmərəsiz dəstək mexanizmlərinin mərhələli şəkildə azaldılaraq vəsaitlərin daha effektiv istiqamətlərə yönəldilməsini təklif edir. Bəs Azərbaycanın buğda, ət, süd, balıq və bitki yağları üzrə istehsal potensialı nə qədərdir?

### "BUĞDA VƏ BİTKİ YAĞLARINDA İDXALDAN ASILILIQ YÜKSƏKDİR"

İqtisadçı Eyyub Kərimlinin sözlərinə görə, xüsusilə buğda, ət, süd, balıq və bitki yağları kimi strateji məhsullar üzrə daxili istehsalın artırılması həm ərzaq təminatının dayanıqlılığı, həm də xarici bazarlardakı dəyişikliklərin ölkə iqtisadiyyatına təsirinin azaldılması baxımından mühüm əhəmiyyət daşıyır: "Azərbaycanın bu məhsullar üzrə özünütəminetmə səviyyəsi fərqlidir. Buğda daxili istehsal tələbatı tam qarşılamır və əhəmiyyətli həcmdə idxaldan asılıyıq. Ət və süd məhsullarında özünütəminetmə səviyyəsi daha yüksək olsa da, yem bazasının vəziyyəti və istehsal xərclərinin artması bu sahələrdə də müəyyən risklər yaradır. Balıq məhsulları üzrə potensial mövcud olsa da, akvakultura sahəsinin inkişafı hələ arzuolunan səviyyədə deyil. Bitki yağları da idxaldan daha çox asılı olduğumuz məhsullar sırasında yer alır".

### AQRAR İSTEHSALI LƏNGİDƏN ƏSAS AMİLLƏR

E.Kərimli bildirdi ki, problemin əsas səbəblərindən biri yalnız istehsal həcminin aşağı olması deyil, həm də mövcud potensialdan tam istifadə edilməməsidir: "Torpaq və su resurslarının məhdudluğu, suvarma infrastrukturunun problemləri, toxum və yem xərclərinin yüksəkliyi, eləcə də məhsuldarlığın aşağı olması aqrar istehsalın genişlənməsinə mane olan əsas amillər sırasındadır. Bununla yanaşı, su qıtlığı və iqlim riskləri, kiçik və parçalanmış təsərrüfat strukturu, müasir texnologiya və mexanikləşmənin kifayət qədər geniş yayılmaması, həmçinin fermerlərin gəlirliliyinin aşağı olması da istehsalın artımını məhdudlaşdırır. Bu baxımdan, əsas məqsəd yalnız əkin və istehsal sahələrinin genişləndirilməsi deyil, mövcud resurslardan daha səmərəli istifadə etməklə məhsuldarlığın yüksəldilməsi olmalıdır".

### ƏT, SÜD VƏ AKVAKULTURADA DAHA BÖYÜK İMKANLAR VAR

İqtisadçının fikrincə, real potensial baxımından ət və süd istehsalında, eləcə də balıqçılıq və akvakultura sahəsində imkanların daha geniş olduğu görünür: "Buğda istehsalında isə əsas istiqamət əkin sahələrinin artırılmasından çox məhsuldarlığın yüksəldilməsi və suvarma imkanlarının yaxşılaşdırılması ola bilər. Bitki yağları üzrə isə idxaldan asılılığın azaldılması üçün həm xammal bazasının genişləndirilməsi, həm də emal imkanlarının inkişaf etdirilməsi vacibdir. İdxal asılılığının azaldılması üçün digər mühüm istiqamət emal sənayesinin inkişafıdır. Çünki yalnız xammal istehsalının artırılması kifayət etmir. Məhsulun emalı, saxlanması, qablaşdırılması və satışına qədər bütün zəncirin formalaşdırılması kənd təsərrüfatında əlavə dəyərin yaradılmasına imkan verə bilər".

E.Kərimli hesab edir ki, dövlət dəstəyi mexanizmləri bu prosesdə mühüm rol oynayır: "Subsidiyaların istehsal həcminə deyil, məhsuldarlıq və səmərəlilik göstəricilərinə daha çox bağlanması "nəticəyə görə dəstək" prinsipinin gücləndirilməsinə imkan verə bilər. Bununla yanaşı, suvarma infrastrukturunun modernləşdirilməsi, toxum və damazlıq bazasının inkişaf etdirilməsi, aqrar sığortanın genişləndirilməsi, fermerlərin maliyyə resurslarına çıxışının yaxşılaşdırılması və logistika imkanlarının artırılması da əsas prioritetlər sırasında olmalıdır".



## "ƏSAS PROBLEM RƏQABƏT MÜHİTİNİN ZƏİF OLMASIDIR"

İqtisadçı-ekspert Pərviz Heydərov isə düşünür ki, adı çəkilən məhsulların demək olar ki, heç biri üzrə yerli istehsal daxili tələbatı tam ödəmir: "Məsələn, buğda üzrə tələbat təqribən 3 milyon ton təşkil edir ki, yerli istehsal bunun yalnız 60 faizini qarşılayır. Ət və süd üzrə isə vəziyyət əvvəl daha yaxşı olsa da, son illərdə özünütəminetmə səviyyəsi təqribən 80 faiz civarına düşüb. Balıq və bitki yağları üzrə isə idxaldan asılılıq daha yüksəkdir. Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə dair müşavirədən sonra 2026–2030-cu illər üçün müvafiq Dövlət Proqramı təsdiq edildi. Onun icrası üçün ilk növbədə sahənin inkişafına mane olan amillər müəyyən edilməlidir. Əsas problemlərdən biri aqrar sektorda rəqabət mühitinin zəif olmasıdır. Buna görə maya dəyəri və idxal ciddi təzyiq yaradır".

### "MÖVCUD SUBSİDİYA SİYASƏTİ DƏYİŞMƏLİDİR"

P.Heydərovun sözlərinə görə, ölkəmizdə dövlət tərəfindən aqrar sahədə ən çox dəstək görən və istehsalı stimullaşdırılan məhz taxıl istehsalıdır. Lakin bu sahədə effektivlik aşağıdır: "Torpaqların icarədə cəmləşdirilməsi hesabına xırda təsərrüfat sahibləri prosesdən kənarda qaldı, buğda istehsalı ilə əsasən iri fermerlər və imkanlı şəxslər məşğul olmağa başladılar. Beləliklə, sahə rəqabətdən kənarda qaldı. Aqrar sahədə yüksək əməktutumluluq da effektivliyin aşağı olmasının göstəricilərindən biridir. İşçi qüvvəsi az, məhsuldarlıq yüksəkdirsə, deməli, texnologiyalardan və mexanikləşmədən daha səmərəli istifadə olunur. Ona görə hesab edirəm ki, mövcud subsidiya siyasəti də dəyişməlidir".



Eyyub Kərimli

İQTİSADİYYAT Kaspi 22 AVQUST ŞƏNBƏ 2026 9

ATILAN ARDICIL ADDIMLAR NƏTİCƏSİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATI YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUR

# İQTİSADİ GÖSTƏRİCİLƏRDƏ MÜSBƏT DİNAMİKA




Mövcud statistik rəqəmlər Azərbaycan iqtisadiyyatının dayanıqlılığını və mövcud çağırışlara münasibətdə inkişaf tempini qoruduğunu bir daha əyani şəkildə göstərir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Dünyada baş verən kataklizmlər qlobal iqtisadi inkişaf tempinə də ciddi təsir göstərməkdədir. Yaxın coğrafiyamızda cərəyan edən proseslər, təchizat sistemlərinin kəskin şəkildə pisləşməsi Azərbaycan iqtisadiyyatına da ilkin mərhələdə müəyyən qədər təsir etmiş oldu. Nəticədə keçən il və 2026-cı ilin ilk rübündə iqtisadi inkişaf göstəricilərində narahatlıq yaradan rəqəmlər qeydə alındı. Lakin ölkə rəhbərliyinin uzaqgörən siyasəti bu sahədə də öz sözünü deməkdədir. Atılan addımlar, həyata keçirilən operativ tədbirlər mövcud çağırışlar fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlılığını bir daha dünyaya göstərmiş oldu.

### ÜDM İSTEHSALI 1,4 FAİZ ARTIB

2026-ıcı ilin ilk yeddi ayının statistik rəqəmləri də iqtisadi inkişaf tempinin sürətlənəcəyi ilə bağlı proqnozları gücləndirir. Belə ki, bu ilin yanvar-iyul aylarında Azərbaycanda 76 milyard 817,7 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən 1,4% çoxdur. O cümlədən, son 1 ildə ölkənin neft-qaz ÜDM-nin dəyəri 0,6% azalaraq 22 milyard 916,5 milyon manata düşüb, qeyri-neft-qaz ÜDM-nin dəyəri isə 2,2% artaraq 53 milyard 901,2 milyon manata çatıb. ÜDM istehsalının 34,5%-i sənaye, 10,5%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,3%-i nəqliyyat və anbar təsərrüfatı, 6,2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5%-i tikinti, 2,9%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2%-i informasiya və rabitə sahələrinin, 21,9%-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7%-ni təşkil edib.



## Qeyri-neft sektoru üzrə ixrac 18 faizdən çox artıb

Bu gün Azərbaycanın iqtisadi inkişaf modelinin əsas lokomotivi və prioritet elan olunan sahə qeyri-neft sektorudur. Bu ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz artaraq 2,5 milyard dollar təşkil edib. Cari il iyulun 1-nə iqtisadiyyata kredit qoyuluşları 33 milyard 881,1 milyon manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur. Hesabat dövründə Azərbaycanda əsas kapitala 11 milyard 111,9 milyon manat investisiya yönəldilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 10,7 faiz çoxdur. Yeddi ayda qeyri-neft-qaz sektoruna investisiya qoyuluşu isə keçən ilin eyni aylarına nisbətən 1,9 faiz artaraq 7 milyard 403,3 milyon manat təşkil edib.

Bu ilin yanvar-iyul aylarında neft-qaz sektoruna 3 milyard 708,6 milyon manatlıq vəsait yönəldilib. Qeyd edək ki, 2025-ci ilin müvafiq dövründə sözügedən göstərici 2 milyard 734,4 milyon manat səviyyəsində olub.



### BÖLGƏLƏRİN İNKİŞAF GÖSTƏRİCİLƏRİ

Son bir ildə iqtisadi artım tempi bölgələrdə də müsbət dinamika ilə müşahidə olunur. Xüsusilə Naxçıvan Muxtar Respublikasında. Yanvar-iyul aylarında Naxçıvanda 1 milyard 25,7 milyon manat dəyərində ümumi daxili məhsul istehsal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,1% çoxdur. Son 1 ildə muxtar respublikada adambaşına düşən ÜDM-in dəyəri isə 2,8% artaraq 2 170 manat təşkil edib. Prezident İlham Əliyevin Naxçıvana son səfəri əldə edilən bu göstəricilərin daha böyük dinamika ilə inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir.

## Prioritet sahələrdə iqtisadi artım göstəriciləri

Hazırda ölkənin əsas aparıcı iqtisadi sektorları arasında aqrar sahə xüsusi əhəmiyyət daşıyır. Bir müddət əvvəl aqrar sektorun inkişafı ilə bağlı Prezident İlham Əliyev tərəfindən keçirilən müşavirədə bu istiqamətdə prioritet vəzifələr və hədəflər elan olunub. Həyata keçirilən tədbirlər nəticəsində bu ilin yanvar-iyul ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 8 milyard 797,2 milyon manat təşkil edib. Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu real ifadədə 2,8 faiz artıb.

## Sənaye sektorunda istehsal

Təbii ki, hər bir ölkənin iqtisadi inkişaf göstəricilərində əsas indikator həm də sənaye istehsalı və bu sahəyə yatırılan investisiyalardır. Bu ilin yanvar-iyul aylarında sənaye sektorunda 38 milyard 902,4 milyon manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,3 faiz çox sənaye məhsulu istehsal edilib.

Hesabat dövründə qeyri-neft-qaz sənayesində 12 milyard 724,8 milyon manatlıq məhsul istehsal olunub. Bu da keçən ilin analoji dövrünə nisbətən 4,4 faiz çoxdur.

Emal sənayesində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı (+88,4%), əczaçılıq məhsullarının istehsalı (+53,9%), toxuculuq sənayesi (+35,9%), tütün məmulatlarının istehsalı (+18,4%), kağız və karton istehsalı (+12,5%), qida məhsullarının istehsalı (+9,6%), metallurgiya sənayesi (+9,5%), maşın və avadanlıqların quraşdırılması və təmiri işləri (+8,5%), dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı (+8,3%), elektrik avadanlıqlarının istehsalı (+7,6%), tikinti materiallarının istehsalı (+7,3%) sahələrində olub.

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarına bu günədək 7,2 milyard manatdan çox investisiya yatırılıb. Sahibkarlar tərəfindən 20,9 milyard manatlıq məhsul istehsal edilərək satılıb, bunun 6,7 milyard manatdan çoxu ixrac olunub. Hazırda ölkədə fəaliyyət göstərən 9 sənaye parkı, 3 sənaye məhəlləsi və 2 özəl sənaye məhəlləsində sahibkarlar üçün əlverişli biznes mühiti yaradılıb, 11 200-dən çox daimi iş yeri yaradılıb.

**76 MİLYARD 817,7 MİLYON MANATLIQ ÜDM İSTEHSAL OLUNUB**

### XARİCİ TİCARƏTDƏ 9,3 MİLYARD DOLLARLIQ MÜSBƏT SALDO

Müsbət inkişaf meylləri xarici tərəfdaşlarla qarşılıqlı ticarət dövriyyəsində də qeydə alınıb. Belə ki, bu ilin yanvar-iyun ayları ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 9,1 faiz artaraq 26 milyard 54,2 milyon dollar təşkil edib. Hesabat dövründə ixracın dəyəri 43,2 faiz artaraq 17 milyard 713,1 milyon dollar, o cümlədən qeyri-neft-qaz ixracı 3,2 dəfə artaraq 5 milyard 548,4 milyon dollar olub. Altı ayda idxalın dəyəri isə 27,6 faiz azalaraq 8 milyard 341,1 milyon dollar təşkil edib. Hesabat dövründə 119 ölkəyə məhsul ixrac edilib, 155 ölkədən isə məhsul idxal olunub. Bu dövrdə 9 milyard 372 milyon dollar məbləğində müsbət ticarət saldosu yaranıb. Ötən ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi nominal ifadədə 9,1 faiz artıb, real ifadədə isə 13,1 faiz azalıb.

## Əhalinin maddi gəlirləri də artıb

İqtisadi inkişafın müsbət nəticələri özünü əhalinin gəlirləri və sosial-iqtisadi təminat göstəricilərində də büruzə verir. Bu ilin yanvar-iyul aylarında Azərbaycan əhalisinin nominal gəlirləri 55 milyard 631,8 milyon manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 9,8 faiz çoxdur. Cari il iyulun 1-nə fiziki şəxslərin banklardakı əmanətlərinin məbləği 17 milyard 823,6 milyon manat təşkil edib. Əmanətlər ötən ilin eyni dövrü ilə müqayisədə 15,5 faiz artıb. Həmçinin hesabat dövründə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7 faiz artaraq 1174,4 manat təşkil edib.

## Tranzit daşımalarda son beş ilin rekordu

Azərbaycanın qeyri-neft sektorunun əsas strateji dayaqlarından biri sözsüz ki, tranzit yükdaşımalar, bağlantılardır. Bu istiqamət ölkəmizin iqtisadi inkişaf strategiyasında gələcək hədəflərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat-logistika qovşağı kimi mövqeyini daha da möhkəmləndirir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, eləcə də son illərdə reallaşdırılan iri infrastruktur layihələri nəticəsində cari ilin ilk 7 ayında tranzit daşımaların həcmi 9,1 milyon tonu ötərək son 5 ilin rekord səviyyəsinə yüksəlib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz çoxdur. Xüsusilə tranzit yükdaşımaların həcmi Şərq-Qərb istiqamətində 16,5 faiz, Şimal-Cənub istiqaməti üzrə isə 14,3 faiz artıb. Əldə olunan nəticələr son illərdə nəqliyyat və logistika sahəsində həyata keçirilən islahatlar, rəqəmsallaşma, infrastrukturun modernləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qlobal ticarət marşrutlarında baş verən dəyişiklikləri, həmçinin Azərbaycanın Orta Dəhliz və Şimal-Cənub dəhlizləri üzrə strateji mövqeyinin və rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artdığını göstərir.



## Valyuta ehtiyatları artıb, xarici borc azalıb

Sözsüz ki, Azərbaycanın dayanıqlı iqtisadi inkişafını, mövcud qlobal çağırışlara adekvat reaksiyasını, makroiqtisadi sabitliyini şərtləndirən ən mühüm amillərdən biri ölkəmizin maliyyə müstəqilliyidir. Bu il avqustun 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 86 milyard 814,9 milyon dollar təşkil edib. Bu göstərici ötən il avqustun 1-nə nisbətən 12,2 faiz çoxdur.

Digər tərəfdən, Prezident İlham Əliyev tərəfindən xarici dövlət borcunun azaldılması ilə bağlı qarşıya qoyduğu tapşırıqlar da uğurla həyata keçirilir. Bu il avqustun 1-nə Azərbaycanın xarici dövlət borcu 4 milyard 590,8 milyon dollar təşkil edib. Bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,5 faiz azdır.

Beləliklə, mövcud statistik rəqəmlər Azərbaycan iqtisadiyyatının dayanıqlılığını və mövcud çağırışlara münasibətdə inkişaf tempini qoruduğunu bir daha əyani şəkildə göstərir.



# TURİZM SEKTORUNDA 2030-CU İL HƏDƏFİ

Azərbaycan hökuməti 2030-cu ilə qədər turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərdə təxminən 40% real artım hədəfləyir.

Prezident İlham Əliyev "Turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Bununla bağlı dövlət başçısı yeni sərəncam imzalayıb.

Sərəncama əsasən, Nazirlər Kabineti 6 ay müddətində Dövlət Turizm Agentliyinin təklifləri əsasında "Turizm haqqında" qanunun təkmilləşdirilməsi, üç ay müddətində isə turizm fəaliyyəti ilə bağlı layihələrə investisiya təşviqi sənədinin verilməsi və turizm fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla investisiya təşviqi sənədinin verilməsi mexanizminin təkmilləşdirilməsini təmin etməlidir.

**TURİZM SEKTORUNDA 40% REAL ARTIM HƏDƏFİ**

Dövlət Proqramına əsasən, Azərbaycan hökuməti 2030-cu ilə qədər turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərdə təxminən 40% real artım hədəfləyir. Gələn il sektorda 8,5 milyard manatlıq əlavə dəyər formalaşdırılacaq. Bu rəqəmin 2030-cu ildə 12,2 milyard manata çatdırılması hədəflənir. Dövlət Proqramının icrası nəticəsində Azərbaycanın turizm sektorunun regional və qlobal rəqabət qabiliyyəti gücləndiriləcək, ölkə dayanıqlılıq prinsipləri əsasında müxtəlif turizm növləri üzrə yüksəkkeyfiyyətli turizm təcrübəsi təqdim edən rəqabətqabiliyyətli destinasiyaya çevriləcək.

Dövlət Proqramına əsasən, Azərbaycanda "Turizm kəndi" konsepsiyası üzrə normativ hüquqi bazanın yaradılması da hədəflənir. Bundan başqa, sənəddə dayanıqlı turizm, o cümlədən turizmdə iqlim fəaliyyəti ilə bağlı tənzimləmə mexanizminin yaradılması yer alıb. Həmçinin, dövlət qoruqlarında (abidələrin ərazilərində) dayanıqlı turizmin təşkil edilməsi, təbiət ərazilərində, o cümlədən milli parklarda dayanıqlı turizmin təşkil edilməsi, ov turizminin inkişafı məqsədilə ov təsərrüfatlarının yenidən qurulması, Naftalan şəhərində turizmin inkişaf etdirilməsi, turizm potensialı olan kəndlərdə "turizm kəndi" konsepsiyasına uyğun olaraq turizm infrastrukturunun yaradılması əsas hədəflər sırasındadır.

**DƏMİRYOL BİLETİ PAKETLƏRİ TƏTBİQ EDİLƏCƏK**

Turistlər üçün gündəlik, həftəlik, aylıq dəmir yolu bileti paketlərinin, həmçinin destinasiyalar üzrə güzəştli bilet satışı təkliflərinin yaradılması da hədəflənir. Eyni zamanda Dövlət Proqramında dəmir yolu bileti satışının Qlobal Paylama Sisteminə (GDS) inteqrasiyası, Naxçıvan Muxtar Respublikasına turist səyahətlərinin təşkili şərtlərinin təkmilləşdirilməsi məqsədilə Bakı-Naxçıvan- Bakı istiqaməti üzrə qeyri-müntəzəm (çarter) uçuşlarının həyata keçirilməsi şərtlərinin müəyyən edilməsi, turoperatorlara turizm zərfinin satışı şərtilə Bakı-Naxçıvan-Bakı reysi üzrə biletlərin sifarişini təmin edən satış modelinin hazırlanması yer alıb.



## TUROPERATORLAR GƏTİRDİKLƏRİ TURİSTLƏRƏ GÖRƏ SUBSİDİYA ALACAQ

Azərbaycanda Turizm İnformasiya Sisteminin yaradılması və inkişaf etdirilməsi də hədəflənir. Bundan başqa, Dövlət Proqramında hava yolu, dəmir yolu, rayonlararası avtobus, metro, ictimai şəhər nəqliyyatı üzrə sərnişindaşımaya dair məlumatların (dayanacaq, marşrut, səfər və müntəzəm reyslərə dair digər məlumatlar) "GFTS" (General Transit Feed Specification) formatında hazırlanması, audiobələdçi hazırlanacaq turizm nümayiş obyektlərinin siyahısının müəyyən edilməsi və həmin obyektlər üzrə 5 xarici dildə bələdçi mətnlərinin rəqəmsallaşdırılması və audio formata çevrilməsi, audiobələdçilərin QR kod və digər rəqəmsal alətlər vasitəsilə istifadəyə verilməsi, "Azerbaijan. travel" rəqəmsal turizm platformasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi yer alıb.

Azərbaycanda turoperatorlara ölkəyə gətirilən əcnəbi turistlərə görə subsidiya verilməsi də nəzərdə tutulur. Bundan başqa, Proqramda hava nəqliyyatı ilə qeyri-müntəzəm (çarter) uçuşların təşkilinə görə təşkilatçıların xərclərinin kompensasiyası, hədəf turizm bazarları üzrə əlavə müntəzəm aviareyslərin təşkili, turizm əhəmiyyətli tədbirlərin, o cümlədən konsert, əyləncəli proqramların təşkilinə görə tədbir təşkilatçılarının xərclərinin bir hissəsinin kompensasiyası ilə bağlı subsidiya mexanizmlərinin yaradılması, yerləşmə xidmətlərinin infrastrukturu üzrə investorlara və turizm sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektlərinə subsidiya dəstəyinin verilməsi yer alıb.




# SOCAR WIN müraciətlərin qəbuluna başlayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) innovativ ideyaların və qabaqcıl texnologiyaların enerji sektoruna inteqrasiyasını hədəfləyən "WIN" (What is Next?) Açıq İnnovasiya Proqramı çərçivəsində müraciətlərin qəbuluna başlayıb. "Report" bu barədə şirkətə istinadən xəbər yayıb.

Məlumata görə, layihənin əsas məqsədi neft-qaz əməliyyatlarını təkmilləşdirən və enerji keçidinə töhfə verən texnoloji həlləri SOCAR mütəxəssisləri ilə birgə sınaqdan keçirmək, onların tətbiq imkanlarını qiymətləndirməkdir. Proqram enerji keçidi və aşağı karbonlu texnologiyalar, süni intellekt, məlumat analitikası və rəqəmsallaşma, dayanıqlı iqtisadiyyat, əməliyyat mükəmməlliyi, eləcə də əməyin mühafizəsi, texniki təhlükəsizlik və ətraf mühitin qorunması (HSE) istiqamətlərini əhatə edir.

Müraciətlər sentyabrın 12-nə qədər dünyanın istənilən nöqtəsindən olan startaplar, texnologiya şirkətləri və innovatorlar üçün açıqdır. Seçim mərhələsini uğurla keçən iştirakçılara SOCAR mütəxəssisləri ilə birbaşa əməkdaşlıq şəraitində layihələrini real əməliyyat mühitində sınaqdan keçirmək üçün 20 000 ABŞ dollarına qədər sınaq büdcəsi təqdim ediləcək.

Proqramda iştirak etmək istəyən namizədlər rəsmi müraciət şərtləri və digər detallarla tanış olmaq üçün win.socar.az internet səhifəsinə daxil ola bilərlər.

Kaspi
Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qazet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1061
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# XARİCİ DİL MÜƏLLİMLİYİNƏ QƏBUL NİYƏ AZALIR?

Növbəti tədris ilindən universitetlərdə xarici dil müəllimliyi ixtisaslarına qəbul yerləri azaldılacaq. Bəs, görəsən, planlaşdırılan bu dəyişikliyin səbəbi nədir?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Növbəti tədris ili üçün bir sıra ali təhsil müəssisələrində xarici dil müəllimliyi ixtisasına qəbul planında azalma diqqət çəkir. İngilis dili ilə yanaşı, alman və fransız dili üzrə də təkcə paytaxtda deyil, region universitetlərində də yerlərin azaldılması tendensiyanın təsadüfi olmadığını göstərir.

Bəs, görəsən, bu dəyişiklik əmək bazarında xarici dil müəllimlərinə tələbatın azalması, yoxsa başqa bir səbəblə bağlıdır?

### DİM-İN VƏ ALİ MƏKTƏBLƏRİN MƏSƏLƏDƏ ROLU

Qəbul planında azalma qeyd olunan universitetlər siyahısında yer alan Xəzər Universitetindən sualımıza "Bəli, azalma var" - deyə məlumatı təsdiqlədilər: "Bununla bağlı açıqlamanı Dövlət İmtahan Mərkəzi (DİM) verib. Universitet özəl olsa da, qəbul DİM tərəfindən həyata keçirilir. Bütün qərarları onlar verir".

Qəbul planında azalmanın səbəbi ilə bağlı DİM-dən sorğumuza isə "Plan yerlərinin sayını DİM müəyyən etmir" - cavabını aldıq: "DİM plan yerlərinin sayı ilə bağlı heç bir qərar vermir. Qurumun belə bir səlahiyyəti yoxdur. Bunu ali təhsil müəssisələrinin özləri müəllim ştatına, maddi-texniki bazalarına uyğun olaraq müəyyən edirlər. Biz Nazirlər Kabineti tərəfindən təsdiq olunan plan yerlərini dərc edirik və ora qəbul aparırıq. "Niyə artıb, niyə azalıb?" kimi səbəbləri biz müəyyən etmirik. DİM sadəcə, təsdiq olunmuş plan yeri əsasında tələbə qəbulu prosesini həyata keçirir".

### BEŞ ZƏİF MÜƏLLİMDƏNSƏ, İKİ PEŞƏKAR MÜƏLLİM

Bakı şəhər 135 nömrəli tam orta məktəbin direktoru Şəfa Qurbanovanın fikrincə, bu proses xarici dilə ehtiyacın azalması ilə bağlı deyil: "Bu, sadəcə, "kəmiyyətdən keyfiyyətə keçid" mərhələsidir. Müasir dünyada xarici dil biliklərinə tələbat nəinki azalmır, əksinə, beynəlxalq inteqrasiya və yeni təhsil standartları fonunda daha da artır. Məsələ müəllimə olan ehtiyacda deyil, əmək bazarına daxil olan kadrın hazırlıq səviyyəsindədir. Bu gün məktəbə sadəcə "diplomlu müəllim" deyil, müasir metodikaya hakim, funksional mütəxəssis lazımdır. Son illərdə bu ixtisas üzrə həddindən artıq kadr hazırlığı aparılıb və əmək bazarında keyfiyyət deyil, kəmiyyət bolluğu yaranıb. Məktəb rəhbəri kimi deyə bilərəm ki, bizə az saatla kifayətlənən beş zəif müəllim deyil, tam "stavka" (əmək norması) ilə sinfə girən, şagirdə dili sevdirən və beynəlxalq standartlara cavab verən iki peşəkar müəllim lazımdır". Direktorun fikrincə, bəzi universitetlərdə plan yerlərinin daha ciddi azalmasının səbəbi birbaşa ali təhsil müəssisələrinin təhsil keyfiyyəti, kadr hazırlığı imkanları və məzunların MİQ imtahanlarındakı göstəriciləri ilə bağlıdır.

## "Diplom evdə bir küncdə qalacaqsa..."

Fransız dili müəllimi Gülnur Əliyevanın fikrincə, hazırda ingilis dili məktəblərdə daha çox tələb olunan dildir, fransız, alman və s. dillərə isə maraq azalıb: "Demək olar ki, bəzi məktəblərdə bu fənlərdən dərs deyən müəllimlər 7-8 saat üçün işləyirlər, halbuki çoxu sertifikasiyada 51+ bal toplayıblar. Bu da həmin dil müəllimlərinin iş saatının azalması deməkdir. Digər tərəfdən, məncə, əmək bazarında yetərincə müəllim var və vakant yerlər uğrunda da mübarizə aparılır. Balı daha üstün olanlar həmin yeri qazanır və digərləri yenə də məktəblərdə müəllim kimi fəaliyyət göstərə bilmirlər". G.Əliyevanın fikrincə, bəzi universitetlər yetişdirdiyi kadrların iş tapa bilməməsindən narahat olaraq bu addımı atıblar: "Əgər bir ixtisası bitirib ondan istifadə edilməyəcəksə, diplom evdə bir küncdə qalacaqsa, elə həmin ixtisaslara əvvəldən plan yerlərinin daha az verilməsi məqsədəuyğundur".

## "Regionların ehtiyacı düzgün nəzərə alınmasa..."

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının Şəki-Zaqatala regionu üzrə filial rəhbəri, Gənc Xarici Dil Müəllimləri Birliyinin Qəbələ rayonu üzrə koordinatoru Fəridə Ağayevanın fikrincə, son illərdə xüsusilə ingilis dili müəllimliyi üzrə kifayət qədər kadr hazırlanıb və bu sahədə rəqabət yüksəkdir: "Lakin müəllim sayının çox olması bütün regionlarda ehtiyacın ödənilməsi demək deyil. Regionların ehtiyacı düzgün nəzərə alınmasa, gələcəkdə müəyyən ərazilərdə kadr çatışmazlığı riski yarana bilər. Kənd mühitində çalışan biri kimi düşünürəm ki, məsələ yalnız müəllim hazırlamaq deyil, yaxşı müəllimin regiona gəlməsini və orada fəaliyyətini davam etdirməsini də təmin etməkdir".

F.Ağayeva hesab edir ki, ingilis dili ilə müqayisədə alman və fransız dili müəllimlərinə tələbat daha məhduddur: "Bununla belə, bu dillər üzrə peşəkar kadr hazırlığının davam etməsi ölkəmizin çoxdilli təhsil imkanları və beynəlxalq əlaqələri baxımından əhəmiyyətlidir".

### "MÜƏLLİM ÇOXDUR, YOXSA AZDIR?"

Təhsil texnoloqu, dosent Şəmil Sadiqin fikrincə, məktəblərdə xarici dil müəllimlərinə real ehtiyac bütün xarici dillər və bölgələr üzrə eyni deyil: "İngilis dili daha geniş tədris olunduğuna görə, bu dil üzrə həm müəllimlərin, həm də müəllim olmaq istəyən namizədlərin sayı daha çoxdur. Buna görə də xüsusilə böyük şəhərlərdə ingilis dili müəllimliyi üzrə rəqabət yüksək ola bilər. Amma eyni sözü alman və fransız dili üçün rahatlıqla demək olmaz. Bu dillər üzrə həm tələbə, həm məzun, həm də müəllim sayı daha azdır. Bir sahədə kadr çoxluğu ola bilər, digərində isə bir neçə ildən sonra çatışmazlıq yarana bilər". Ekspert hesab edir ki, gələcəkdə regionlarda müəllim çatışmazlığı yaranmaması üçün qəbul planı hazırlanarkən yalnız bugünkü vəziyyətə yox, ən azı qarşıdakı 4-5 ilə baxmaq daha düzgün olardı: "Çünki müəllim çatışmazlığı yalnız müəllimlərin ümumi sayı ilə bağlı deyil, onların ölkə daxilində necə bölüşdürülməsi ilə də bağlıdır. Plan yerini azaltmaq avtomatik olaraq təhsilin keyfiyyətini artırmır. Məncə, əsas məqsəd çox müəllim hazırlamaq yox, ehtiyac qədər və keyfiyyətli müəllim hazırlamaq olmalıdır. Bizcə, əsas sual "müəllim çoxdur, yoxsa azdır?" olmamalıdır".



# BAKININ GÜNƏŞİ AVTOMOBİLLƏRİ NECƏ "QOCALDIR"?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Bakının isti və günəşli havası avtomobillərin bir sıra hissələrinə ciddi təsir edir. Mütəxəssislər günəş altında qalan avtomobillərdə temperaturun 76° C-yə çata bildiyini vurğulayırlar.**

Bakıda yay aylarında avtomobillərin böyük hissəsi günün ən isti saatlarında açıq havada qalır. Kölgəlik və qapalı dayanacaq imkanlarının məhdud olması sürücüləri avtomobillərini saatlarla birbaşa günəş altında saxlamağa məcbur edir. Bəs intensiv günəş və yüksək temperatur avtomobilə necə təsir edir, uzun müddət belə şəraitdə qalan maşınlarda hansı problemlər yarana bilər? Avtomobili günəşdən qorumağın ən effektiv və sərfəli yolları hansılardır? Son illərdə Azərbaycanda sayı artan Çin avtomobilləri isti və günəşli iqlim şəraitinə nə dərəcədə davamlıdır?

### "AVTOMOBİLİN SALONUNDA İSTİLİK 76° C-YƏ ÇATA BİLƏR"

Avtomobillər üzrə mütəxəssis Elçin Abbasovun sözlərinə görə, Bakının iqlimində avtomobillərə əsasən iki amil təsir göstərir - yüksək temperatur və intensiv günəş şüaları, xüsusilə ultrabənövşəyi (UV) şüalanma. Avtomobil uzun müddət açıq havada saxlanıldıqda bu amillərin təsiri müxtəlif hissələrin aşınmasını sürətləndirə bilər: "Günəşdən ən çox təsirlənən hissələrdən biri boya və lak örtüyüdür. UV şüaları zaman keçdikcə lak qatını zəiflədir, nəticədə səthin parlaqlığı azalır, rəng solur və bəzi hallarda zədələnir. Salon da yüksək temperatur və günəş şüalarına həssasdır. Ön panel, sükan, qapı üzlükləri və digər plastik detallar sərtləşə, rəngini dəyişə, çatlaya və deformasiyaya uğraya bilər. Dəri və süni dəri oturacaqlarda isə quruma, sərtləşmə və çatlama müşahidə edilir. Günəş altında avtomobilin salonunda temperaturun 76°C-yə çatması mümkündür. Belə istilik salon materiallarının qocalmasını sürətləndirir. Qapı və şüşə rezinləri elastikliyini itirə, sərtləşə və çatlaya bilər. Təkərlərdə də rezinin qocalması sürətlənir. Buna görə təkərlərin vəziyyətini yalnız protektorun qalınlığı ilə qiymətləndirmək olmaz, onların yaşı və yan səthlərində çatların olub-olmaması da yoxlanılmalıdır".

## "QIRMIZI RƏNG DAHA TEZ SOLUR, QARA İSƏ DAHA ÇOX QIZIR"

E.Abbasov bildirdi ki, avtomobilin rəngi də günəşin təsirində müəyyən rol oynayır: "Burada rəngin solması ilə avtomobilin qızmasını fərqləndirmək lazımdır. Bəzi rənglərdə, məsələn, qırmızıda solma daha tez nəzərə çarpır. Lakin nəticə yalnız rəngdən deyil, boya sistemindən və xüsusilə şəffaf lak qatının keyfiyyətindən də asılıdır. Qızma baxımından isə tünd rəngli avtomobillər daha əlverişsiz vəziyyətdədir. Qara və digər tünd səthlər günəş enerjisini daha çox udduğu üçün kuzov daha çox qızır. Bu isə salon materiallarına və digər komponentlərə düşən istilik yükünü artırır".

### AVTOMOBİLİ GÜNƏŞDƏN NECƏ QORUMALI?

Mütəxəssisin fikrincə, avtomobil 3–5 il ərzində daim açıq havada saxlanıldıqda dəyən zərər bir gündə yaranmır, zamanla toplanır: "Avtomobili günəşdən qorumağın ən sadə və sərfəli yolu mümkün qədər kölgədə park etməkdir. Ön şüşə üçün keyfiyyətli günəşlikdən istifadə də ön paneli, sükanı və multimedia ekranını birbaşa günəş şüalarından qoruyur. Avtomobil uzun müddət istifadə edilməyəcəksə, keyfiyyətli örtükdən də istifadə etmək olar. Örtüyün avtomobil üçün nəzərdə tutulması və nəfəsalan materialdan hazırlanması vacibdir. Boya, plastik və rezin hissələrə uyğun qoruyucu vasitələrdən istifadə etmək, təkərlərin təzyiqini və ümumi vəziyyətini mütəmadi yoxlamaq da faydalıdır. Qoruyucu tədbirlərə avtomobil yeni olduğu vaxtdan başlamaq daha məqsədəuyğundur".

### ÇİN AVTOMOBİLLƏRİ VƏ MİFLƏR

E.Abbasov həmçinin Çin avtomobillərindən də bəhs etdi: "Çin avtomobilləri istiyə davamlı deyil" kimi ümumi fikir söyləmək düzgün olmaz. Çinin özündə də yüksək temperaturun müşahidə olunduğu bölgələr mövcuddur. Məsələn, Turpan avtomobil istehsalçıları tərəfindən yüksək temperatur sınaqları üçün istifadə olunur. Burada havanın temperaturu yay aylarında 40°C-ni keçir və müxtəlif istehsalçıların benzin, hibrid və elektrik avtomobilləri belə şəraitdə sınaqdan keçirilir. Azərbaycan üçün isə avtomobilin hansı bazar üçün istehsal edilməsi də mühüm amildir. Ölkəyə gətirilən Çin avtomobillərinin bir hissəsi rəsmi ixrac versiyası, digər hissəsi isə Çin daxili bazarı üçün nəzərdə tutulan modellər ola bilər. Eyni markanın müxtəlif bazarlar üçün istehsal etdiyi versiyalarda proqram təminatı, telematika, servis dəstəyi, bəzi komponentlər və komplektasiya fərqlənir. Bu səbəbdən avtomobil alarkən yalnız istehsalçı ölkəyə deyil, konkret marka və modelə, istehsal ilinə və avtomobilin hansı bazar üçün nəzərdə tutulduğuna diqqət yetirmək lazımdır".

## "SOYUTMA SİSTEMİ KİFAYƏT QƏDƏR EFFEKTİV İŞLƏMƏDİKDƏ"...

Mütəxəssis bildirdi ki, isti havalarda Çin avtomobillərində xüsusilə salon plastikləri, dekorativ elementlər, multimedia ekranları, rezin detallar və kondisioner sistemi diqqət tələb edir: "Elektrik və plug-in hibrid avtomobillərdə isə batareya və güc elektronikasının soyutma sistemi əlavə əhəmiyyət daşıyır. Yüksək temperatur zamanı soyutma sistemi kifayət qədər effektiv işləmədikdə avtomobil batareyanı qorumaq üçün şarj və ya mühərrik gücünü məhdudlaşdıra bilər. Bu, bəzi hallarda nasazlıq deyil, qoruma mexanizmidir".

### "AĞAC ALTINDA SAXLAMAQ TAM TƏHLÜKƏSİZ VARİANT DEYİL"

Nəqliyyat eksperti Aslan Əsədovun sözlərinə görə, istər kəskin isti, istərsə də soyuq hava şəraiti avtomobillərə ciddi təsir göstərir: "Sürtkü və mühərrik yağları vaxtında dəyişdirilmədikdə yüksək temperatur onların keyfiyyətinə və qoruyucu xüsusiyyətlərinə mənfi təsir göstərə bilər. Avtomobil uzun müddət hərəkətsiz qaldıqda isə şinlərdə deformasiya və yataqlanma, asqı sistemində problemlər yaranır. Avtomobili birbaşa günəş şüalarından uzaq saxlamaq ən effektiv qorunma üsullarından biridir. Yeraltı dayanacaqlar, tam qapalı qarajlar və ya dalanlar bu baxımdan daha əlverişli variantlardır. Açıq günəş altında qalan avtomobillə kölgədə və ya qapalı mühitdə saxlanılan avtomobil arasında bəzən 20-25 dərəcəyə qədər temperatur fərqi yarana bilər. Avtomobili ağac və ya tent altında saxlamaq günəşdən qismən qorunma təmin etsə də, tam təhlükəsiz variant hesab edilmir".





Aslan Əsədov

# BAĞIRSAQ XƏRÇƏNGİ GƏNCLƏŞİR

Azərbaycanda bağırsaq xərçəngi ilə mübarizədə ən böyük problem təkcə gec diaqnoz deyil. Bunun arxasında maarifləndirmənin kifayət qədər olmaması, insanların ilk simptomları ciddiyə almaması, həkimə gec müraciət etməsi və sosial məsuliyyətin aşağı olması dayanır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Son illər dünyada həkimləri və alimləri narahat edən tendensiyalardan biri bağırsaq (kolorektal) xərçənginin getdikcə daha gənc yaşlarda aşkarlanmasıdır. Əgər əvvəllər bu, əsasən 50 yaşdan yuxarı insanların xəstəliyi hesab olunurdusa, indi 20-40 yaş arası şəxslərdə bağırsaq xərçəngi diaqnozuna daha tez-tez rast gəlinir.

Bəs Azərbaycanda vəziyyət necədir? Bağırsaq xərçəngi ölkəmizdə də gəncləşirmi?

### "XƏSTƏLİYİN YAYILMA GÖSTƏRİCİLƏRİNDƏ ARTIM MÜŞAHİDƏ OLUNUR"

"Liv Bonadea" Xəstəxanasının Onkologiya şöbəsinin müdiri, tibbi onkologiya uzmanı Altay Əliyev bildirdi ki, dünya üzrə statistik göstəricilərdə kolorektal xərçəng görülmə tezliyinə görə üçüncü, xərçənglə bağlı ölüm hallarına görə isə ikinci yerdədir. Azərbaycanda isə bütün xərçəng növləri arasında görülmə tezliyinə görə dördüncü, ölüm səbəbi kimi isə üçüncü yerdə qərarlaşıb: "Ən çox 50 yaşdan yuxarı yaş qrupunda rast gəlinsə də, son illərdə həm dünyada, həm də Azərbaycanda xəstəliyin yayılma göstəricilərində artım müşahidə olunur. Gənc yaşda aşkarlanan kolon xərçəngi hallarının ümumi kolon xərçəngi xəstələri arasında payı təxminən 10 faiz təşkil edir. Gənc yaş qrupunda bu xəstəlik kişilər arasında daha çox müşahidə olunur".

Xəstəliyin gəncləşmə səbəblərinə gəldikdə isə həkim bildirir ki, qidalanma vərdişlərindəki dəyişikliklər mühüm rol oynayır: "Süni və yarımemal olunmuş fabrikat qidaların istifadəsinin artması, süd və lif tərkibli məhsulların istehlakının azalması risk faktorlarının yüksəlməsinə səbəb kimi göstərilir. Genetik və bioloji mexanizmlər baxımından isə gənc xəstələrdə bəzi irsi sindromların, o cümlədən "Lynch" sindromunun daha çox rast gəlinməsi diqqət çəkir. Eyni zamanda, son illərdə gənclər arasında artıq çəki və şəkərli diabet halları da bağırsaq mikrobiotasına təsir edərək xəstəliyin yaranmasına zəmin yaradan amillər sırasında göstərilir".

### ƏN HƏYAT QURTARICI YANAŞMA

Həkim vurğulayır ki, əlamətlər ortaya çıxdıqdan sonra müraciət edən xəstələrdə çox vaxt artıq irəliləmiş mərhələdə xəstəlik diaqnozu qoyulur. Buna görə risk qruplarının müəyyənləşdirilməsi və əlamət olmadan skrininq müayinələrinin aparılması tövsiyə edilir: "Bu müayinələrə kolonoskopiya və nəcisdə gizli qanın yoxlanılması daxildir. Ən həyat qurtarıcı yanaşma isə xəstəlik əlamət vermədən diaqnozun qoyulması və ya xərçəngönü proses sayılan poliplərin vaxtında aşkar edilərək götürülməsidir. Nəcisdə qan, səbəbsiz çəki itkisi və bağırsaq funksiyasında, o cümlədən defekasiya vərdişlərində pozulmalar xəbərdaredici əlamətlər kimi qiymətləndirilməlidir. Erkən diaqnoz üçün nəcisdə gizli qan analizi və kolonoskopiya tövsiyə edilir. Kolon xərçəngi skrininqi məqsədilə artıq bir çox ölkədə 45 yaşdan etibarən kolonoskopiya məsləhət görülür. Kolonoskopiyanın əhəmiyyəti təkcə erkən diaqnozla məhdudlaşmır. Bu müayinə bağırsaqda aşkarlanan poliplərin çıxarılmasına imkan verir və gələcəkdə xərçəngin yaranmasının qarşısını almaqda mühüm rol oynayır".

### "QƏHRƏMANLIQ" VƏ YA "SAĞLAMLIQ GÖSTƏRİCİSİ"

Onkoloq bağırsaq xərçəngi ilə bağlı cəmiyyətdə yayılmış yanlış təsəvvürlər haqqında da məlumat verdi: "Ən geniş yayılmış yanlış təsəvvür onun yalnız yaşlı insanların xəstəliyi olması fikridir. Digər təhlükəli yanaşma isə heç bir şikayət yoxdursa, narahat olmağa ehtiyac olmadığı düşüncəsidir. Halbuki erkən mərhələdə kolorektal xərçəng çox vaxt heç bir simptom vermir və yalnız skrininq müayinələri vasitəsilə aşkarlana bilər. Ümumiyyətlə, ən təhlükəli və tez-tez rast gələn yanlış düşüncələrdən biri uzun müddət həkimə müraciət etməməyin "qəhrəmanlıq" və ya "sağlamlıq göstəricisi" kimi qəbul edilməsidir."



Altay Əliyev

**Dünyada 50 yaşdan aşağı insanlarda bu diaqnozun qoyulma tezliyi kəskin şəkildə artır.**

### "Erkən diaqnoz həyat xilas edir"

Həkimin sözlərinə görə, Azərbaycanda bağırsaq xərçəngi ilə mübarizədə ən böyük problem təkcə gec diaqnoz deyil. Bunun arxasında maarifləndirmənin kifayət qədər olmaması, insanların ilk simptomları ciddiyə almaması, həkimə gec müraciət etməsi və sosial məsuliyyətin aşağı olması dayanır: "Bir çox xəstələr nəcisdə qan, bağırsaq vərdişlərində dəyişiklik, səbəbsiz çəki itkisi və ya uzunmüddətli qarın ağrılarını hemorroy, sadə həzm problemi kimi qiymətləndirərək aylarla həkimə müraciəti gecikdirirlər. Skrininq mədəniyyətinin formalaşdırılması da mühüm əhəmiyyət daşıyır. Kolorektal xərçəng azsaylı xərçəng növlərindən biridir ki, skrininq vasitəsilə təkcə erkən aşkarlanması deyil, həm də xərçəngə çevrilməzdən əvvəl poliplərin aşkar edilərək çıxarılması ilə qarşısını almaq mümkündür. Buna görə də ictimai maarifləndirmənin gücləndirilməsi, risk qruplarının vaxtında müayinələrə cəlb edilməsi və erkən diaqnostika proqramlarının genişləndirilməsi xəstəlikdən ölüm hallarının əhəmiyyətli dərəcədə azalmasına töhfə verə bilər". Həkim əlavə edir ki, ən güclü müdafiə vasitəsi erkən diaqnozdur: "Klassik prinsip dəyişmir: erkən diaqnoz həyat xilas edir və bir çox hallarda xəstəliyin tam müalicəsinə imkan yaradır. Simptomları görməzdən gəlmək olmaz, çünki gecikdirilən hər ay müalicə şansına mənfi təsir göstərə bilər".

# TƏKCƏ CV GÖNDƏRMƏK KİFAYƏT ETMİR

İş tapmaq üçün yalnız CV göndərmək kifayət etmir. Mütəxəssislər vakansiya platformaları ilə yanaşı, Dövlət Məşğulluq Agentliyinin imkanlarından, şirkətlərin karyera səhifələrindən və peşəkar əlaqələrdən istifadə etməyi tövsiyə edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İş tapmaq bu gün ən aktual məsələlərdəndir. İşaxtaranlar vakansiya platformaları, şirkətlərin karyera səhifələri, peşəkar sosial şəbəkələr və Dövlət Məşğulluq Agentliyinin imkanlarından istifadə edirlər. Lakin əmək bazarında mövcud vakansiyaların hansı kanallarda yayımlandığı və işaxtaranların bu imkanlara nə dərəcədə çıxış əldə etdiyi məsələsi də diqqət çəkir. Bəs iş axtaran şəxs real vakansiyaları haradan və necə tapmalıdır?

### VAKANSİYA BANKINDAN NECƏ YARARLANMAQ OLAR?

Dövlət Məşğulluq Agentliyindən sorğumuza cavab olaraq bildirildi ki, işaxtaran və işsiz şəxslər Dövlət Məşğulluq Agentliyinin Vakansiya Bankındakı iş yerləri ilə tanış olmaq üçün Agentliyin regional filiallarına və ya DOST mərkəzlərinə müraciət edə bilərlər: "Müraciət zamanı vətəndaşın məşğulluq imkanları qiymətləndirilir və ona uyğun vakansiyalar təklif olunur. Şəxs təklifi qəbul etdikdə, ƏMAS (Əmək və Məşğulluq Altsistemi) vasitəsilə işəgötürənə elektron göndəriş verilir. Agentliyə müraciətin əsas üstünlüyü ondan ibarətdir ki, iş təklifi ilə yanaşı, vətəndaşlar peşəyönümü, peşə hazırlığı və digər aktiv məşğulluq proqramlarına da cəlb oluna bilirlər. "Məşğulluq haqqında" qanunun 18.3-cü maddəsinə əsasən, işəgötürən yeni iş yeri yarandığı və ya boşaldığı gündən ən geci beş iş günü müddətində həmin vakansiya barədə məlumatları ƏMAS-ın Vakansiya Bankına daxil etməlidir. İşəgötürənin vakansiyanı öz rəsmi saytında, "LinkedIn" və ya digər özəl platformalarda elan etməsi onu ƏMAS-a məlumat daxil etmək üzrə qanuni öhdəliyindən azad etmir. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 540.2-ci maddəsinə görə, vakansiyanın dövlət sisteminə daxil edilməməsi 500 manatdan 1000 manatadək cərimə ilə nəticələnə bilər".

### "RƏQƏMSAL ELANLAR VASİTƏSİLƏ MÜRACİƏT ETMƏK DAHA UĞURLUDUR"

Əmək qanunvericiliyi üzrə ekspert Nüsrət Xəlilovun sözlərinə görə, müasir əmək bazarında iş axtarışı üçün konkret effektiv üsul göstərmək çətindir. Təcrübəyə əsasən, hazırda ən səmərəli vasitələr ixtisaslaşmış iş elanları saytları və böyük şirkətlərin rəsmi internet səhifələrindəki "Karyera" bölmələridir: "İşaxtaranların bu platformalardakı vakansiyaları gündəlik izləməsi daha məqsədəuyğundur. Əvvəllər geniş yayılmış birbaşa müəssisələrə gedərək iş axtarmaq metodu isə artıq öz aktuallığını itirib. Hazırda hər hansı şirkətə fiziki olaraq yaxınlaşdıqda, ən yaxşı halda namizədə sadəcə CV doldurmaq üçün forma təqdim edilir. Bu səbəbdən, rəqəmsal elanlar vasitəsilə müraciət etmək həm vaxta qənaət, həm də nəticə baxımından daha uğurludur".




### "BU ÖHDƏLİYİN YERİNƏ YETİRİLMƏMƏSİ HÜQUQİ MƏSULİYYƏT YARADIR"

Ekspertin fikrincə, Dövlət Məşğulluq Agentliyinin təqdim etdiyi vakansiya bazası da effektiv mənbə hesab olunur: "Belə ki, qanunvericiliyə görə, bütün müəssisələr yeni və ya boş iş yeri yarandıqda bu barədə məlumatları mütləq şəkildə Agentliyin sistemində yerləşdirməyə borcludurlar. Yəni bu, işəgötürənlər üçün könüllü bir proses deyil, birbaşa qanuni öhdəlikdir. Bu öhdəliyin yerinə yetirilməməsi isə hüquqi məsuliyyət yaradır".

### "İŞƏ QƏBUL PROSESLƏRİ ƏKSƏR HALLARDA QAPALI HƏYATA KEÇİRİLİR"

İnsan resursları və işə qəbul üzrə mütəxəssis Sevda Quliyeva isə bildirdi ki, bu məsələ əmək bazarının ən həssas və yaralı yerlərindən biridir: "Bəzən biz özümüz də bu proseslərdə ciddi çətinliklərlə, haqsız rəqabətlə üzləşirik. Bunun əsas səbəbi işə qəbul proseslərinin əksər hallarda qapalı həyata keçirilməsidir. Təəssüf ki, bir çox qurumlar öz komandasını şəxsi tanışlıq və əlaqələr vasitəsilə formalaşdırmağa üstünlük verir. Dövlət Məşğulluq Agentliyinə, adətən, texniki və ya fəhlə kateqoriyasına aid olan vakansiyalar təqdim edilir. Bəzi şirkətlər əməkhaqqı məbləğini məxfi saxlamaq üçün strateji vəzifələri rəsmi dövlət portallarına verməkdən çəkinirlər. Kateqoriya fərqinə görə bu yanaşma müəyyən mənada anlaşılandır. Lakin rəhbər və strateji vəzifələr peşəkar HR və "headhunting" şirkətlərinə həvalə olunmalıdır ki, biz onları doğru hədəf kütləsinə və ən uyğun namizədlərə çatdıra bilək. Bunun əvəzində isə istər dövlət, istərsə də özəl sektorda vakansiyaların cəmiyyətdən gizlədilməsi və yalnız tanışları ilə doldurulması halları geniş yayılıb. Beynəlxalq kadr idarəetməsi təcrübəsində belə bir yanaşma yoxdur və bu tendensiya cəmiyyət tərəfindən ciddi şəkildə qınanılmalıdır".

## "ƏN EFFEKTİV ÇIXIŞ YOLU BİR NEÇƏ KANALDAN İSTİFADƏ ETMƏKDİR"



Nüsrət Xəlilov

S.Quliyevanın fikrincə, bu gün iş tapmaq minlərlə insan üçün ən aktual məsələdir. Namizədlər yalnız vakansiya portallarına CV göndərib cavab gözləmək yanaşması ilə kifayətlənməməlidirlər: "Ən effektiv çıxış yolu paralel şəkildə bir neçə kanaldan istifadə etməkdir. CV mütləq şəkildə konkret vəzifənin tələblərinə uyğunlaşdırılmalı və birbaşa şirkətlərin HR komandalarına göndərilməlidir. Eyni zamanda, "LinkedIn" kimi peşəkar platformalarda aktiv olmaq, əlaqələr qurmaq və şəxsi brendi formalaşdırmaq şərtdir. Bunlardan əlavə, xüsusilə orta və yüksək səviyyəli mütəxəssislər HR, rekrutinq və "headhunting" şirkətləri ilə mütəmadi əlaqədə olmalıdırlar. Çünki şirkətlər məxfi və rəhbər vakansiyaları qısa müddətdə uyğun namizədlərlə doldurmaq üçün məhz bu xidmətlərə müraciət edirlər. Müasir əmək bazarında işəgötürənlər üçün yalnız diplom və quru iş təcrübəsi deyil, namizədin real bacarıqları, rəqəmsal kompetensiyaları, kommunikasiya qabiliyyəti, liderlik potensialı və şirkətə qatacağı dəyər həlledici əhəmiyyət daşıyır. Buna görə də işaxtaranlar adaptasiya olunmuş CV, şirkətlərə birbaşa müraciət, aktiv "networking" və peşəkar rekrutinq şirkətlərinin imkanlarından paralel şəkildə istifadə etməlidirlər. Əsas məqsəd sadəcə çoxlu sayda CV göndərmək deyil, doğru şirkətə, doğru vəzifəyə, doğru zamanda və ən doğru namizəd kimi təqdim olunmaqdır".



Sevda Quliyeva

# GƏLƏCƏYİN ŞƏHƏRİNƏ SƏYAHƏT



Şanxayın iki üzü var: bir tərəfdə futuristik rudonq göydələnləri, digər tərəfdə isə sahil boyunca Avropa memarlığı... Bir neçə dəqiqəlik gəzinti ilə sanki iki fərqli əsrə keçirsiniz.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Pekindən Şanxaya səfərimiz yüksək sürətli qatarla başladı. 431 kilometr sürətlə yol alan qatar ölkənin qürur mənbəyi sayılır. Dörd saat yarımdan sonra Şanxayın müasir dəmiryol stansiyasına daxil olduq. Bu səfər yol boyu ölkənin əyalətləri, şəhərləri, unikal təbiəti ilə tanışlıq üçün əla imkan yaradır. Pekin-Şanxay qatarı təkcə iki böyük şəhəri birləşdirmir, həm də ölkənin texnoloji inkişafının və müasir nəqliyyat infrastrukturunun göstəricisi kimi heyranlıq yaradır.

## KEÇMİŞ BALIQÇI KƏNDİ

Şanxay ənənəvi Çin mədəniyyətini müasir texnologiyalar və ultramodern memarlıq nümunələri ilə birləşdirən nadir şəhərlərdəndir. Bu şəhərə səfər edən hər kəs təkcə nəhəng bir meqapolislə tanış olmur, həm də gələcəyin şəhər həyatının necə formalaşdığını yaxından müşahidə etmək imkanı qazanır.

Təxminən 30 milyon əhalisi olan Şanxay Çinin ən böyük şəhərlərindən və dünyanın aparıcı maliyyə, elm, tədqiqat, mədəniyyət, texnologiya və turizm mərkəzlərindən biridir. Bu şəhərə qədəm qoyan kimi diqqəti ilk cəlb edən səmaya ucalan nəhəng göydələnlərdir. İlk ağla gələn isə "Bu binaları görəsən necə tikiblər?" sualıdır. Sanki memarlar gələcəyin şəhərini əvvəlcə burada qurublar. Əslində, Şanxayın iki üzü var: bir tərəfdə futuristik rudonq göydələnləri, digər tərəfdə isə Bund (sahil) boyunca Avropa memarlığı... Bir neçə dəqiqəlik gəzinti ilə sanki iki fərqli əsrə keçirsiniz.

Bələdçimizdən öyrənirik ki, Şanxay dünyada ən çox göydələnlərə malik şəhərlər siyahısında altıncı yerdədir. Dünyada əhalisinə görə, beşinci ən böyük şəhərdir: "Əvvəlcə balıqçı kəndi və bazar şəhəri olan Şanxay 19-cu əsrdə daxili və xarici ticarət, əlverişli liman yeri sayəsində qlobal şöhrət qazanıb. Hazırda Şanxay Limanı dünyanın ən işlək konteyner limanıdır. Elə şəhərin adının "Dənizin üzərində" olması da Şanxayın liman kimi tarixini əks etdirir", - deyə bələdçimiz məlumat verir.

Şanxayın siması ilk növbədə biznesla assosiasiya olunur. Beynəlxalq koorporasiyaların qərargahları, maliyyə institutları, innovasiya mərkəzləri və iri ticarət kompleksləri bu şəhəri Asiyanın iqtisadi lokomotivlərindən birinə çevirib. İnsanlarla dolu küçələrdə, metro stansiyalarında və biznes mərkəzlərində hiss olunan dinamika şəhərin enerjisini əks etdirir.

Axşam saatlarında isə Şanxay tamamilə başqa rəng alır. Minlərlə işıqla bəzənən göydələnlər, rəngarəng reklam panelləri və müasir memarlıq nümunələri şəhəri nəhəng bir işıq kompozisiyasına çevirir. Bu mənzərə şəhərin bütün qonaqlarını özünə cəlb edir.

## ZİDDİYYƏTLƏR METROPOLU

Çin ənənəvi olaraq çay ölkəsi kimi tanınsa da, son illərdə Şanxay dünyada ən çox kafesi olan şəhərlərdən birinə çevrilib.

Şanxay Çinin biznes paytaxtıdır. 30 milyonluq əhalisi olan şəhərin əsas xüsusiyyəti mədəniyyətlərin, dillərin və adət-ənənələrin qarışığıdır. Burada Buddist məbədləri göydələnlərlə yan-yana dayanır, gələcəyin memarlığı ilə keçmişin həyətləri, qlobal maliyyə mərkəzləri ilə məhəllə çayxanaları bir-birinə mane olmadan yaşayır.

Qloballaşmanın həyəcanverici ruhu minilliklər boyu davam edən mədəniyyətlə qarışaraq Şanxayı ziddiyyətlər metropoluna çevirib.

Şanxayın xüsusən mərkəzi hissəsində böyük qlobal şirkətlərin ofislərinin yerləşdiyi futuristik şüşə göydələnlər cəmləşib. Onlardan biri Çinin ən hündür binası olan - 632 metr hündürlükdə Şanxay Qülləsidir. Binanın 125 mərtəbəsində təkcə ofislər deyil, həm də şəhərin heyrətamiz mənzərələri görünən beşulduzlu hotel yerləşir.

Bir vaxtlar Bakının Keşlə qəsəbəsində zarafatla "Şanxay evləri" adlandırılan tikililərlə müqayisə edəndə anlayırsan ki, bu şəhəri fərqləndirən sıxlıq deyil. Burada milyonlarla insanın eyni ritmdə yaşamasını mümkün edən nizam-intizamdır. Şanxay bahalı şəhər olduğundan yaşayış xərcləri Çinin bir çox digər şəhərlərinə nisbətən daha yüksəkdir.

## ROBOTLAR, SÜNİ İNTELLEKT VƏ "AĞILLI ŞƏHƏR" HƏLLƏRİ

Şanxayda texnologiya yalnız gələcəyin ideyası deyil, artıq bu günün reallığıdır. Robotlar, süni intellekt və "ağıllı şəhər" həlləri milyonlarla insanın gündəlik həyatını daha rahat edir.

Ticarət mərkəzlərində və restoranlarda ziyarətçilərə xidmət göstərən robotlar artıq adi mənzərəyə çevrilib. Bir çox müəssisədə sifarişlərin çatdırılması və müxtəlif xidmətlər avtomatlaşdırılmış sistemlər vasitəsilə həyata keçirilir. Şəhərin nəqliyyat sistemi də texnoloji yeniliklərin nümunəsidir. Şanxayın bəzi metro xətlərində maşinistsiz qatarlar hərəkət edir. Dünyanın ən sürətli kommersiya maqnit qatarlarından biri olan Şanxay Maglev qatarı burada fəaliyyət göstərir.

Turistlər üçün də Şanxayda səyahət etməyin ən asan yolu metrodur. 19 xətt demək olar ki, bütün şəhəri əhatə edir. Xarici turistlər metronu olduqca rahat hesab edirlər, çünki bütün stansiya adları və lövhələri ingilis dilindədir.

## ƏN ÇOX ALİ TƏHSİL MÜƏSSİSƏSİNƏ MALİK ŞƏHƏR

Şanxay həm də beynəlxalq tədqiqat və inkişaf mərkəzidir. Burada Çinin ən nüfuzlu ali məktəblərindən bir çoxu yerləşir. Şəhər hər il dünyanın müxtəlif ölkələrindən minlərlə tələbə qəbul edir. Bir çox proqramlar ingilis dilində tədris olunur. 2025-ci ilin məlumatına görə, Şanxay 68 universitet və kolleci ilə Şərqi Çin bölgəsində ən çox ali təhsil müəssisəsinə malik şəhər kimi birinci yerdədir.

## KULİNARİYA MÜXTƏLİFLİYİ

Şanxay qonaqlarını kulinariya müxtəlifliyi ilə heyran edir. Burada ənənəvi Çin yeməkləri və ya onların qərbləşdirilmiş versiyalarını sınamaq olur. Amma hazır olun: kosmopolit atmosferə baxmayaraq, şəhərdə yemək üçün çubuqlara üstünlük verilir, çəngəl və bıçaqlar yalnız bir neçə restoranda təklif olunur.

Şanxay dünyanın ən sürətli şəhərlərindən biri sayılsa da, parklarda insanlar saatlarla mahjonq oynayır, rəqs edir, söhbətləşir. Dəbdəbəli göydələnin kölgəsində köhnə yaşayış binasının eyvanında quruyan paltarları görmək mümkündür. Şanxay köhnəni nə tarixindən, nə yaddaşından, nə də gündəlik həyatından silib.













Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
22 AVQUST ŞƏNBƏ 2026
www.kaspi.az

Zubir uzun illər “Qarabağ”ın dəyişilməz simalarından biri olmağı bacardı. O, hər dəfə top ayağına gələndə tribunaların ayağa qalxmasına səbəb olan futbolçulardan idi.

# “QARABAĞ”IN İZ QOYUB GEDƏN SEHRBAZI




Futzal futbola bənzəyir, amma əslində çox fərqli oyunlardır. Futzalda meydan daha kiçik, vaxt daha az, rəqib daha yaxındır. Böyük futboldan futzala keçidlər olduqca geniş yayılıb. Lakin əks marşrutla hərəkət edib uğur qazananların sayı elə də çox deyil. Onlardan biri isə artıq “Qarabağ”ın əfsanəsi kimi xatırladığımız zdir. Onun oyununda yuxarıda sadaladığımız keyfiyyətləri ən incə detallarına qədər görmək mümkündür. O, futzaldan gələn texnikanı böyük futbola uğurla daşıyan futbolçulardan biridir. 6 yaşından futzalla məşğul olan Zubir hətta Fransa U-21 futzal millisində də oynayıb. Lakin daha sonra şansını böyük meydanda sınamaq qərarına gəlib. 2018-ci ildə yolu “Qarabağ”a düşən Abdullah burada keçirdiyi səkkiz il ərzində futbolumuzun ən tanınan fiqurlarından biri oldu.

### SƏKKİZ MÖHTƏŞƏM MÖVSÜM

“Qarabağ”ın formasını 2018-ci ilin yayından geyinən Zubir Ağdam təmsilçisinin heyətində 368 oyunda 78 qol vurub. “Atlılar”la altı dəfə ölkə çempionu titulunu qazanan vinger iki dəfə də kubokun sahibi olub. Avrokuboklarda parlaq çıxış edən Zubir Azərbaycan klublarının qitəmiqyaslı yarışlarda rekordçusudur. Mərakeş əsilli oyunçu 18 dəfə rəqib qapılarına yol tapmağı bacarıb. O, avrokuboklarda keçirdiyi oyunların sayına görə isə yalnız Maksim Medvedevdən geri qalır. Legionerlər arasında isə yenə də birincidir.

Zubirin karyerasının Azərbaycana qədər olan hissəsi də maraqlıdır. O, “Qarabağ”a gəlməzdən əvvəl Fransa, Şotlandiya və Rumıniyada oynayıb. 2018-ci ildə isə “Lans”dan Ağdam klubuna keçidi heç də futbolçunun ətrafındakı insanların hamısına məntiqli görünmürdü. Onun üçün Azərbaycan seçimlərdən biri idi, amma sonradan bu seçim karyerasının ən uzun və ən uğurlu mərhələsinə çevrildi. Zubir “Qarabağ”a gələndə 26 yaşında idi. O buradan 34 yaşında, 8 möhtəşəm mövsümdə ciddi uğurlar əldə etmiş, minlərlə azarkeşin qəlbini fəth etmiş, bir klubun əfsanəsinə çevrilmiş şəkildə ayrıldı.

## Saf istedad

Zubirin futbolçu profilinin əsas hissəsi onun driblinq bacarığıdır. O, topu qəbul edir, qısa fasilə verərək qarşısındakı müdafiəçini bir anlıq süzür, sonra bədəni ilə bir istiqamət göstərib başqa tərəfə gedir. Bəzən heç sürətini artırmadan rəqibini geridə qoymağı bacarır, bəzən üç nəfərin arasına girib topu özündə saxlamağı bacarır. “Qarabağ”lı Zubir üçün bu, oyunun təbii axarı idi. Özü də bu, onda saf istedad idi. Zubir bir müddət əvvəl “Məşqdə driblinq üzərində işləyirsən?” sualına belə cavab verməşdi: “Mən heç vaxt driblinq üzərində işləməmişəm. Bu, məndə olan və heç vaxt üzərində düşünmədiyim bir şeydir. Bunu necə izah edəcəyimi bilmirəm, rəqibin qarşısına çıxıram və nəsə edirəm, keçirəm, ya da keçmirəm. Bu, instinktivdir”. Zubir həmin müsahibədə böyük futbola keçidinin ilk mərhələsində taktiki baxımdan xeyli çətinlik çəkdiyini də etiraf etmişdi. Lakin onun həqiqi istedadı bu əngəlləri aşmasına imkan verib. Eləcə də zəhmətkeşliyi. Futbolçu bildirir ki, “Qrenobl”da oynamağa başladığı ilk vaxtlarda məşqdən sonra əlavə çalışmalarla özünü inkişaf etdirib.

## “Saat mexanizmi kimi işləyirdi”

Zubirin “Qarabağ”dakı uzunömürlülüyünü yalnız texnika ilə izah etmək doğru olmaz. Qurban Qurbanovun son açıqlaması bu baxımdan xüsusilə maraqlıdır. Baş məşqçi Zubir üçün vida oyununun niyə keçirilmədiyini izah edərkən onun xarakterindən də danışıb: “Zubir sadə futbolçudur, davranışı və mənəvi keyfiyyətləri yüksək olan insandır. O, məşqləri buraxmırdı, intizam qaydalarını pozmurdu. Həmişə saat mexanizmi kimi işləyirdi”.




Bu, Zubirin “Qarabağ” karyerasının görünməyən tərəfidir. Çünki azarkeş yalnız onun meydandakı improvizasiyasına şahidlik edirdi, Qurban Qurbanov isə hər gün məşqdə işləyən futbolçunu. Zubirin “Qarabağ”da səkkiz il qalmasının səbəblərindən biri də məhz bu idi. Azərbaycan onun üçün sadəcə karyerasının növbəti dayanacağı olaraq qalmadı. O, burada futbolçu kimi böyüdü, “Qarabağ”ın sisteminə uyğunlaşdı və klubun Avropa səviyyəsində yüksəlişinin bir hissəsinə çevrildi.

## 33 yaşında Çempionlar Liqası

Zubirin “Qarabağ”dakı ən yaddaqalan dövrlərindən biri 2025/26 mövsümüdür. O, 33 yaşında ilk dəfə Çempionlar Liqasının əsas mərhələsində oynadı. Debütü isə adi oyun olmadı. “Qarabağ” həmin qarşılaşmada “Benfika”nın qonağı idi. Ağdam klubu 0:2 hesabı ilə geridə olduğu oyunda 3:2 qalib gəldi və Çempionlar Liqasının əsas mərhələsində tarixində ilk qələbəsini qazandı. Zubir həmin oyunda komandanın əsas fiqurlarından biri idi. Bu, Zubirin karyerasının ən böyük hadisələrindən biri idi. O, Bakıya qayıdandan sonra hava limanında azarkeşlərin onları gözlədiyini görəndə qələbənin nə qədər böyük hadisə olduğunu daha yaxşı başa düşdüyünü etiraf etmişdi.



İndi isə yollar ayrılıb. “Qarabağ” avqustun 16-da Zubirlə müqaviləyə xitam verildiyini açıqladı. Klubdan ayrılan futbolçunun son dayanacağı Qətər olacaq.